# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

SCIENTIFIC WORK

International Scientific Journal

aem.az

AEM

ISSN: 2663-4619

e-ISSN: 2708-986X

## ELMİ QAYNAQLAR
## XVII RESPUBLİKA ELMİ KONFRANSI

## SCIENTIFIC RESOURCES
## XVII REPUBLICAN SCIENTIFIC CONFERENCE

12.06.2024

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**
**İmpakt Faktor: 2.717**

---

## ELMİ QAYNAQLAR

## XVII RESPUBLİKA ELMİ KONFRANSI

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

# SCIENTIFIC WORK

**International Scientific Journal**
**Impact Factor: 2.717**

---

## SCIENTIFIC RESOURCES

## XVII REPUBLICAN SCIENTIFIC CONFERENCE

**12.06.2024**

**Bakı – Baku**
**2024**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**e-mail**
aem.konfrans@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10. 36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

### Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan

### Məsul katib

**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əminağa SADIQOV**, AMEA, İdarəçilik Sistemləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ziyadxan ƏLİYEV**, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Akif AĞBABALI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Məhiyəddin MEHDİYEV**, Mingəçevir Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Billurə HACIYEVA** / Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan

### Executive secretary

**Assoc. Prof. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Aminagha SADIGOV**, Institute of Management Systems of ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Karim SHUKUROV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan

**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr**. **Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ziyadkhan ALIYEV**, Azerbaijan State Art Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Akif AGHBABALI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahiyaddin MEHDIYEV**, Mingachevir State University / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, Azerbaijan language / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Billura HAJIYEVA** / Nakhchivan State University / Azerbaijan

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 6-11
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 6-11
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Eldar Cəfərov**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
eldarjafarov@bsu.edu.az
**Fidan Əlili**
Bakı Dövlət Universiteti
magistrant
fidan.alili@bsu.edu.az

## ÜÇÜNCÜ DÜNYA VƏ POSTKOLONİAL TƏHLÜKƏSİZLİK YANAŞMASI

***Açar sözlər:*** *təhlükəsizlik, postkolonializm, tənqidi nəzəriyyə, müstəmləkə sistemi, müstəmləkəsizləşdirmə*
***Keywords:*** *security, postcolonialism, critical theory, colonial system, decolonization*

Yeni təhlükəsizlik yanaşmaları çərçivəsində ortaya çıxan Üçüncü Dünya və Postkolonial təhlükəsizlik yanaşmaları, Soyuq Müharibə şərtlərinin təsiri altında adlandırılan yanaşmalar olaraq görülür. Həm "üçüncü dünya", həm də "postkolonial" anlayışlarını nəzərdən keçirdikdə, onların hər ikisinin bir prosesdə qurulduğunu deyə bilərik. Bu bölmədə üçüncü dünya anlayışının tərifindən başlayaraq Qərbin bu statusa malik dövlətlər üçün hazırladığı Üçüncü Dünya Təhlükəsizlik yanaşmaları təqdim ediləcək. Postkolonial Təhlükəsizlik yanaşması üçün də eyni yolu izləməklə; Konsepsiya nəyi ortaya qoyur? və Təhlükəsizlik fərziyyələri hansılardır? suallarını cavablandırmağa çalışacağıq. Hər iki təhlükəsizlik

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

yanaşmasının oxşar və fərqli cəhətləri misallarla aydınlaşdırılacaqdır.

Klassik təhlükəsizlik yanaşmalarında yalnız dövlətin hərbi təhdidlər üçün istifadə etdiyi sərt təhlükəsizlik *(hard security)* anlayışından istifadə olunurdu. Yeni təhlükəsizlik yanaşmaları isə Qərb tərəfindən adlandırılan və yeni təhdidlərin yaratdığı yumşaq təhlükəsizlik *(soft security)* anlayışını özündə ehtiva edən ortaya çıxdı. Yumşaq təhlükəsizlik anlayışı Üçüncü Dünya dövlətləri üçün çox yeni bir məsələ kimi qəbul edilir. Çünki bu dövlətlər həm milli, həm də dövlət quruculuğu proseslərini hələ başa çatdırmadığı üçün daxili və xarici təhlükələrlə mübarizələrini davam etdirirlər. Bu səbəbdən onların təhlükəsizlik anlayışları çox geniş olsa da, insanlar üzərində dayanan təhlükəsizlik yanaşmasını hələ də qəbul etməyiblər. Əksinə, bu dövlətlərin bəziləri öz vətəndaşlarının təhlükəsizliyini təmin etməkdənsə, özləri ciddi təhlükə yarada bilər (Bilgin, 2010: 39-41).

Üçüncü Dünya anlayışı ilk dəfə 1952-ci ildə Alfred Sauvy tərəfindən bipolyar dünyada iki blokdan kənar dövlətləri təsvir etmək üçün istifadə edilmişdir. Soyuq Müharibənin əvvəlində liberal Qərb dövlətləri Birinci Dünya, kommunist Şərq dövlətləri isə İkinci Dünya olaraq təyin olundu və bu iki dünyanın xaricində olanlar Üçüncü Dünya olaraq xarakterizə edilir. Əsas qiymətləndirmə aparıldığında anlayışın siyasi faktorlar, iqtisadi vəziyyətlər və mədəni xüsusiyyətlər baxımından ortaq xüsusiyyətlərə malik mədəniyyətləri təsvir etmək üçün istifadə edildiyi görüldü. Üçüncü Dünyanın ən mühüm problemi Birinci Dünya dövlətlərinin təzyiqləri ilə üzləşməsidir. Yenə Qərb dövlətləri onları iqtisadi və hərbi yardımlardan özlərindən asılı saxlamaqla, dövlət daxilində qruplaşmaları təhrik etməklə öz məqsədlərinə çatmağa çalışırlar (Nagiyeva, 2024: 9-14).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Əksəriyyəti yeni müstəqillik əldə etmiş, Üçüncü Dünya dövlətlərini təşkil edən Asiya-Afrika dövlətləri 1955-ci ildə Bandunqda toplanaraq dünya ictimaiyyətinə özlərini təqdim etmək imkanı əldə etdilər. Bu konfransda sülh şəraitində yaşamağın əsas qaydaları açıqlanmışdı. Bu qaydaların müstəmləkəçiliyi pisləmək və Qərb dövlətlərindən asılılığı azaltmaq üçün öz aralarında güclü əməkdaşlıq və həmrəylik yaratmaq olduğu vurğulanıb (Üngör, 2009: 29). Bandunqda toplanan bu yeni müstəqil dövlətlər də özlərini bloklara qoşulmayan dövlətlər kimi qələmə verdilər.

Bandunq konfransında qəbul edilən qərarların neytrallaşdırılması, iki qütbün aparıcı dövlətlərinin qısa müddətdə tətbiq etdikləri strategiyalarla həyata keçirildi. İlk növbədə ABŞ dünyada sülh və sabitlik üçün quracağı hərbi bazaların əhəmiyyətindən çıxış edərək öz strategiyalarını həyata keçirib. Yenə öz strategiyalarının bir hissəsi olaraq, Üçüncü Dünya dövlətlərində onlara sadiq hökumətləri hakimiyyətdə saxlayaraq, özlərini dəstəkləyən dövlətlərin sayını artırmağı planlaşdırırdılar (Loomba, 2015: 110).

Buzan zəif dövlətlər adlandırdığı üçüncü dünya dövlətlərinin problemlərinin fərqli təhlükəsizlik yanaşmaları ilə həll oluna biləcəyini bildirib. Bu zəif dövlətlərin ən mühüm problemlərindən biri də rejimlərin legitimlik problemidir. Çünki dövlət və cəmiyyət birgə fəaliyyət göstərə bilmədiklərindən dövlət quruculuğu prosesi başa çata bilmir. Bu vəziyyətdə xaricdən və ya daxildən gələ biləcək təhdidlərə qarşı dura bilməməsinə səbəb olur. Bu təhdidlərə misal olaraq aclıq, epidemiyalar, daxili münaqişələr, qeyri-sabit rejimlər, yüksək cinayət nisbətləri və üçüncü dünya dövlətləri daxilindəki qrupların silahlanması kimi məsələləri göstərmək olar. Eynilə, bu dövlətlər xaricdən dəstəklənən terror qruplarına və onların daxilindəki güclü azlıq qruplarına qarşı mübarizə aparmalıdırlar (Jackson, 2014: 186-190). Bu kontekstdə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Üçüncü Dünya dövlətlərinin bütün bu problemləri həll edə biləcək bir idarəçiliyə və lazımı vasitələrə malik olmaması mühüm maneələr olaraq görülür. Yenə də rejimlərin təhlükəsizliyinin cəmiyyətin təhlükəsizliyindən əvvəl olması problemlərin çıxılmaz vəziyyətə düşməsinə səbəb olur.

Üçüncü dünya təhlükəsizlik yanaşmaları bu dövlətlərin təhlükəsizliyinə hərbi təhlükəsizlik istisna olmaqla, bütün məsələləri daxil etməklə yanaşır. Bu yanaşmalar regional problemlərin həllinin yalnız Qərb yönümlü tədqiqatlar vasitəsilə həyata keçirilməsini tənqid edirdi. Qərb sistemində iyerarxik anlayış olduğu üçün Üçüncü Dünya dövlətləri ikinci dərəcəli mövqedə görünür. Bu yanaşmalar regionun təhlükəsizlik problemini dövlət quruculuğu və iqtisadi inkişafla əlaqələndirərək, Qərbin istəklərinə uyğun olaraq atılan addımların Üçüncü Dünyadakı etibarsızlıqların mənbəyini ortaya çıxara bilməyəcəyini iddia edir (Buzan, 2007: 221-225).

Postkolonial nəzəriyyə, tənqidi nəzəriyyələr çərçivəsində Qərb yönümlü, dövlət və təhlükəsizlik mərkəzli əsas BM nəzəriyyələrinin istifadə etdiyi anlayışların tənqidi olaraq ortaya çıxdı. Yenə bu nəzəriyyədə Qərb ifadələrinin hakim olduğu hegemon quruluşun dəyişdirilməsi ilə bağlı iddialar irəli sürülüb. Postkolonial nəzəriyyə daha çox müstəmləkəçilik, irqçilik, millətçilik, ayrı-seçkilik, köləlik və şəxsiyyət kimi məsələlərə diqqət yetirir. Konsepsiya olaraq postkolonializm müstəmləkəçilik altında yaşayan dövlətlərin müstəqillik qazandıqları dövrü nəzərdə tutur. Post termini bir dövrün sonunu və müstəmləkə dövlətləri daxilində müstəmləkəçiliyin tam sonlandığını göstərir. Lakin müstəmləkəsizləşdirmə (dekonolizasiya) prosesi ilə bu dövlətlərin yeni müstəmləkəçilik adı altında yeni təzyiq sahələri (xüsusən də iqtisadi) ilə üzləşdiyini söyləmək mümkündür. Frantz Fanon, Aime Cesarie, Albert Memmi və Edward Said mühüm əsərləri ilə postkolonial tədqiqatlara töhfə verdilər.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Postkolonial nəzəriyyə ilə birlikdə ortaya çıxan Postkolonial Təhlükəsizlik yanaşmaları da mədəniyyət və modernizm vasitəsilə beynəlxalq sistemin iyerarxik vəziyyətini və təcrübələrini tənqid edir. Ona görə də dövlətin mövqeyini Üçüncü Dünya təhlükəsizlik yanaşmasından fərqli yanaşırlar. Onlar dövləti təhlükəsizliyin yeganə faktoru kimi görmürlər və milli dövlət anlayışında dünya siyasətinin təcricedici praktikalarının yaratdığı etibarsızlıqlara diqqət yetirirlər. Postkolonial təhlükəsizlik yanaşmaları mədəniyyəti təhlükəsizlik diskursunda struktur bir fenomen kimi şərh edir. O, həm də müasirliyi Qərb mərkəzli görür və şübhə altına alır. Müasirliyin Qlobal Cənubda yaşanan təhlükəsizlikləri görmədiyini vurğulayır. Bu kontekstdə postkolonial təhlükəsizlik yanaşmaları Qərb mərkəzli təhlükəsizlik yanaşmalarının əsas anlayışlarına fərqli şərhlər və anlayış gətirmişdir. Qeyd etmək lazımdır ki, tarixi proseslərdən asılı olmayaraq, xüsusilə regional problemlərin həllində yeni təhlükəsizlik yanaşmalarına ehtiyac var.

Nəticədə tənqidi təhlükəsizlik yanaşmaları içərisində qəbul edilən həm Üçüncü Dünya təhlükəsizlik yanaşmaları, həm də Postkolonial təhlükəsizlik yanaşmaları, Üçüncü Dünya və Postkolonial dövlətlərin başda təhlükəsizlik olmaqla bütün problemlərinin, həlli üçün yeni yanaşmalar ortaya qoymuşdur. Bununla belə demək olar ki, son zamanlar qlobal güc olmaq yarışında vüsət alan Qərb dövlətlərinin, xüsusilə ABŞ, Rusiya və Çinin perspektivləri dəyişmədikcə, Üçüncü Dünya və Postkolonial dövlətlər üzərindəki bu vəziyyət yeni müstəmləkəçilik və yeni postkolonializm adlandırılmağa davam edəcəyini söyləmək olar.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

## Ədəbiyyat

1. Bilgin, P. (2010). Təhlükəsizlik Tədqiqatlarında Yeni Təşəbbüslər: Yeni Təhlükəsizlik Tədqiqatları. Strategiya Araşdırmaları Jurnalı, 8 (14), s.30-53.
2. Nagiyeva, N. (2024). Postkolonial Diskurs və Oriyentalizm (Edvard Səid). Geostrategiya jurnalı, mart-aprel 02 (80), s.9-14.
3. Üngör, Ç. (2009). Çin və üçüncü dünya. İU Siyasi Elmlər Fakültəsi Jurnalı. Sayı 41, s.27-38.
4. Loomba, A. (2015). Colonialism/Postcolonialism. Routledge, s.104-114.
5. Jackson, R. (2014). Regime Security. Contemporary Security Studies. Oxford Press, s.185-201.
6. Buzan, B. (2007). People, States and Fear: An Agenda for International Security Studies in the Post-Cold War Era. ECPR Press; 2nd edition, 318 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Kəmalə Həsənova**
Azərbaycan Dillər Universiteti
tarix üzrə fəlsəfə doktoru
kamala.hasanova.02@mail.ru

# RUSİYA FEDERASİYASININ ENERJİ SİYASƏTİ

***Açar sözlər:*** *Rusiya Federasiyası, enerji siyasəti, Avropa İttifaqı, enerji layihələri, Türk axını, Şimal axını*

***Keywords:*** *Russian Federation, energy policy, European Union, energy projects, TurkStream, Nord Stream*

Müasir dünyada enerji təhlükəsizliyi və diplomatiyasında Rusiyanın enerji siyasəti və onun Avropa İttifaqı (Aİ) ilə bu sahədə münasibətləri mühüm yer tutur və araşdırılması aktualdır. Avropa İttifaqı dünyanın ən böyük enerji idxalatçısıdır və neft, təbii qaz ehtiyatlarına malik olmadığı üçün neftin 84%-ni, qazın isə 64%-ni idxal edir. Bu, onu göstərir ki, Aİ enerji sahəsində 55% xarici bazarlardan asılıdır (1). Avropa idxal etdiyi neftin 34.5%-ni, təbii qazın 32%-ni, kömürün 27%-ni Rusiyadan əldə edir, bu da ümumi enerji təminatında Rusiyanın payının 32% olduğunu göstərir (2). Avropa İttifaqının enerji təminatında Rusiyadan asılılıq və Ukraynada baş verən müharibə Avropa ölkələrinin yeni enerji mənbələrinin axtarışını labüd edir. Cənub-şərqi Avropa ölkələrinin Rusiyadan 80-100% asılılıq problemi diversifikasiya meyillərini daha da artırır.

Rusiya enerjidən siyasi alət kimi istifadə edir. Ukrayna və Gürcüstanda rəngli inqilablar baş verdikdən sonra qazın nəqlinin fasilələrlə verilməsi, bəzən tamamilə kəsilməsi ilə Rusiya istər Ukraynaya, istərsə də Avropaya öz təsir imkanlarından istifadə etməyə başladı. Göründüyü kimi, Ukrayna Rusiya arasında yaşanan gərginlik Avropa ölkələrinə ciddi təsir

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 12-15**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 12-15**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

göstərir. Çünki Rusiya öz neft və qazının 49%-ni Ukrayna vasitəsilə ixrac edirdi. Münaqişələrin yarandığı zamanlarda isə əziyyət çəkən ölkələr əsasən cənub-şərqi Avropa ölkələri olur və Polşa, Bolqarıstan, Slovakiya, Ruminya, Çexiya və s. kimi ölkələrin 80-100% rus qazından asılılığı Avropada Rusiyaya alternativ mənbənin tapılmasına zəmin yaradır (2).

Rusiya da Ukraynadan yan keçən layihələr axtarışındadır, "Şimal axını –1", "Şimal axını – 2", "Cənub axını"nı əvəz edən "Türk axını" kimi layihələr Rusiya üçün prioritetdir.

"Türk axını" layihəsi Rusiya və Türkiyə üçün mühüm layihələrdən biridir. "Türk axını" Qara dənizin dibi ilə uzanan ilk Rusiya – Türkiyə qaz kəməri olan "Mavi Axın"ın ikinci xəttinə alternativ sayıla bilər. Bundan əlavə, bu, reallaşdırılmamış "Cənub axını"nın yeni variantıdır. "Türk axını" Rusiya ilə Ukrayna arasında qaz münaqişələri fonunda yaranmış və Rusiya qazının Qara dənizdən – Bolqarıstandan yan keçməklə Avropaya nəqlini nəzərdə tutan layihədir (Imanova, 2022: 124).

Rusiya Federasiyasının bu layihəyə marağının səbəbi bəllidir."Türk axını" və "Şimal axını – 2" Ukraynanı tranzit ölkə kimi neytrallaşdırmağa imkan verir.

Türkiyənin maraqları da göz qabağındadır: bu, Türkiyənin özünün qaz təchizatı probleminin həlli – daha sabit və ucuz təbii qazla təmin edilməsi, eləcə də qazın satışı və Avropaya nəqlindən əldə olunan yüksək gəlirdir. Bundan əlavə, "Türk axını" Türkiyənin geostrateji və geoiqtisadi əhəmiyyətini xeyli artırır, onu əsl qaz ticarət mərkəzinə çevirir (Imanova, 2022: 125).

Avropanın enerji tələbatını ödəyən layihələrdən biri "Şimal axını" olmuşdur.

1990-cı illərdə Rusiyanın "Qazprom" şirkəti Ukrayna, Belarus, Polşa və digər Şərqi Avropa və Baltikyanı ölkələrdən yan keçməklə Baltik dənizinin dibi ilə Mərkəzi Avropaya qaz

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

ixrac boru kəmərinin tikintisi variantlarını araşdırmağa başladı. 2000-ci ildə Avropa Komissiyası onun ilkin layihəsini təsdiqlədi və ona Avropanın enerji resurslarının fasiləsiz təchizatını təmin etmək üçün nəzərdə tutulmuş trans-Avropa şəbəkəsi statusu verdi. 2010-2012-ci illərdə "Şimal axını" qaz kəməri tikildi.

"Şimal axını"nın tikintisi başa çatdıqdan sonra onun səhmdarları "Şimal axını - 2" adlanan qaz kəmərinin ikinci mərhələsinin çəkilməsi ilə bağlı danışıqlara başladılar. Birinci qaz kəmərindən fərqli olaraq, "Qazprom" onun yeganə sahibi oldu, Avropanın enerji şirkətləri layihədə investor qismində qaldı və onun maliyyələşdirilməsinin yarısını – 4,75 milyard avronu təmin etdilər (4).

"Şimal axını – 2"nin iki xəttinin ümumi gücü 55 milyard kubmetrdir. Beləliklə, "Şimal axını" və "Şimal axını – 2"nin ümumi layihə gücü 110 milyard kubmetrdir (5). 2021-ci ilin sentyabrında "Şimal axını – 2"nin tikintisi başa çatdı.

2022-ci ilin sentyabrında "Şimal axını" və "Şimal axını – 2" qaz kəmərlərində təxribat nəticəsində Avropa ölkələri uzun illər Aİ-nin enerji təhlükəsizliyini təmin edən ən mühüm enerji resursunun əsas təchizat marşrutlarından birindən qeyri-müəyyən müddətə məhrum oldu (5).

Beləliklə, Rusiya – Ukrayna müharibəsi başladıqdan sonra Qərbin Rusiyaya qarşı iqtisadi, xüsusilə neft və kömür sahəsində sanksiyaları daha da artdı. Avropa dövlətləri ucuz və nisbətən təmiz yanacaq olan təbii qazdan imtina etməsə də, Rusiyanın "Qazprom" şirkəti Aİ-yə qaz nəqlinin əhəmiyyətli hissəsini kəsdi. Buna görə də, Rusiyadan enerji asılılığını azaltmağa çalışan Aİ bərpa olunan enerji sahəsində potensial dövlətlərlə əməkdaşlıqda maraqlıdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

## Ədəbiyyat

1. Energy production and imports, 2017. http://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Energy_production_and_imports
2. Aydin, F. Rusiya prizmasından Avropa İttifaqının enerji siyasəti. https://www.academia.edu/37948326/RUS%C4%B0YA_PR%C4%B0ZMASINDAN_AVROPA_%C4%B0TT%C4%B0FAQININ_ENERJ%C4%B0_S%C4%B0YAS%C6%8FT%C4%B0
3. Imanova, S.A. (2022). “Russia–Turkey cooperation within the Turkish Stream project”. RSUH/RGGU Bulletin. “Eurasian Studies. History. Political Science. International Relations” Series, no. 3, pp. 122-131.
4. “Severniy potok – 2”. https://www.gazprom.ru/projects/nord-stream2/
5. Smirnov, V. Chto izvestno o podrive gazoprovodov “Severniy potok” i “Severniy potok - 2”. https://tass.ru/info/17258101.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Püstəxanım Qəniyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
ganiyeva.edu@gmail.com

# TƏHSİLDƏ PSİXOLOJİ DƏSTƏK

***Açar sözlər:*** *təhsil, psixoloq, qorxu, fobiya, həyəcan, diaqnostika, korreksiya, terapiya, psixoloji xidmət*

***Keywords:*** *education, psychologist, fear, phobia, anxiety, diagnosis, correction, therapy, psychological service*

Respublikamızda həyata keçirilən təhsil islahatı ilk növbədə təhsilin məzmununda köklü dəyişikliklər aparılmasını, bu işin artıq ayrı-ayrı fərdlərin və dövlətlərin iradəsindən asılı olmayaraq sürətlə qloballaşan dünyamızın inkişaf tendensiyalarına, milli maraqlar çərçivəsinə uyğunlaşdırılmasını tələb edir. Təhsilə, tərbiyəyə ənənəvi yanaşma meyllərinin gözlərimiz qarşısında iflası, yalnız dövlətin, bu işə cavabdeh olan rəsmi təşkilatların deyil, həm də hər birimizin qarşısında ciddi vəzifələr qoyur, çünki təhsil xalqın – bütün cəmiyyətin işidir.

Amerikalı futuroloqlar Con Nesbitt, Patrisiya Eburdin XXI əsrin psixologiya əsri olacağını iddia edirlər (Nesbitt, Eburdin, 1992: 247). Təhsildə psixoloji xidmət zamanı bir çox məsələlər aydınlığı ilə üzə çıxır, bunlardan ən mühümü müəllim-şagird münasibətləridir. Psixoloji tədqiqatlar sübuta yetirir ki, təlim münasibətləri elə münasibətlərdir ki, burada emosionallıq tələb olunur, belə ki, şagird müəllimdən xoşlanmalıdır. Xoşlanmadığı təqdirdə münasibətlər alınmır, bir çox hallarda müasir Azərbaycan məktəbində sevmədiyi fənnə müəllimə görə həvəs göstərənlər, sevdiyi predmetdən müəllimə görə imtina edən şagirdlər müşahidə olunur.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

XXI yüzilliyin qlobal problemləri içərisində insan münasibətləri xüsusi yer tutur. Bir tərəfdən təbabət, digər tərəfdən sosiologiya, sosial psixologiya, hüquq elmləri və b. sahələrdə tutarlı faktlar əldə edilmişdir. İnsanın psixi sağlamlığı, əmək məhsuldarlığı, yaradıcılıq uğurları bilavasitə onun "sosium"unun sosial-psixoloji xüsusiyyətləri, özünəməxsus ziddiyyətləri və qayğıları olan şəxsiyyətlərarası münasibət sahəsi ilə bağlıdır. Dövrün qlobal xəstəlikləri şəxsiyyətlərarası münasibətlərlə əlaqədardır. Pedaqoji ünsiyyət problemlərinin öyrənilməsi göstərir ki, "müəllim-şagird" münasibətləri təlim-tərbiyə məsələsidir.

Məktəbin humanistləşdirilməsi təlim prosesində yeni tipli müəllim-şagird münasibətlərinin yaranmasını nəzərdə tutur. Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır. Müəllimlər şagirdlərlə ünsiyyətə girərkən psixoloji qanunlara deyil, özlərinin empirik təcrübələrinə əsaslanırlar. Müasir psixologiyada başqa adamı anlamağın xüsusiyyətləri – identifikasiya, rolun qəbul olunması, nöqteyi-nəzərin və ya mövqenin dəyişdirilməsi və s. təsvir olunmuşdur. Bu anlayışlardan fərqli olaraq empatiya başqa adamın hisslərinə nüfuz etməyi nəzərdə tutur və müəllimin şagirdi anlamasında mühüm rol oynayır. Bu gün insan amilinin, şəxsiyyət amilinin zamanın qlobal amilinə çevrildiyi bir şəraitdə müəllimin kommunikativ keyfiyyətləri onun peşə xarakteristikasında mühüm yer tutur (Nesbitt, Eburdin, 1992: 247).

Müasir Azərbaycan məktəbində müşahidə olunan problemlərdən biri şagirdlərin müəllimi dərsdə dinləməmələridir. Şagirdlər cansıxıcı dərslərdə biri digəri ilə söhbət edir, səs-küy salır, kənar işlərlə məşğul olurlar. Müəllim yeni dərsi izah edir, şagirdlərin əksəri isə sinifdə darıxır. Bunun ən böyük səbəbi şagirdin dərsə marağının olmamasıdır. Maraq fenomeni psixoloqlar tərəfindən araşdırılmış və maraqlı faktlar əldə edilmişdir. Tədqiqatlar göstərir ki, 40 il öncəki şagirdlərlə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

müqayisədə müasir uşaqların mənimsəməsi üstünlük kəsb edir, lakin texnoloji biliyin çoxalması dərsə marağı itirmişdir. Əslində maraq fenomeni möcüzəli xarakter kəsb edir. İnsanların çoxu qadağan olunmuş hadisələrə daha çox maraq kəsb edir, "16 yaşınadək buraxılmayan" filmlərə daha çox yaşı 16-dan az olanlar baxır və s. Dərsdə maraq effekti yaratmaq üçün müəllim və pedaqoqlar müxtəlif üsullardan istifadə etməlidir. Bunlardan ən mühümü hiss və diqqətin inkişafıdır. Bir çox hallarda maraq özünəməxsus xüsusiyyətlərlə seçilən intellektual emosiya kimi səciyyələndirilir. Şagird hər hansı bir hadisə və ya sahə ilə maraqlandıqda onda həmin hadisə və ya sahəyə seçimli emosional münasibət yaranmağa başlayır. Marağın diqqətlə əlaqəsi də şübhəsizdir. Şagird maraqlandığı hər hansı bir hadisəyə xüsusi səy göstərmədən diqqət yetirməyə başlayır. Psixologiyada bunları sübuta yetirən tutarlı faktlar var.

Eksperimental tədqiqatlar göstərir ki, təlim şagird üçün şəxsi məna kəsb etdikdə təlim maraqlarının inkişafında keyfiyyət etibarilə yeni mərhələ başlayır. Şagirdlərdə məsuliyyət və borc hissinin inkişafı, onların öz fəaliyyətlərinin motivlərini dərk etməsi, tədris situasiyasında öz məqsədini aydın və dəqiq müəyyən edib həyata keçirməsi, motivlərin fəallığı bu baxımdan çox əhəmiyyətli faktorlardandır.

Müasir Azərbaycan məktəbində "Psixologiya"nın bir fənn kimi tədrisi əhəmiyyət kəsb edir. Uşaq müəyyən yaşa çatdıqda özünü fizioloji cəhətdən tanıyır. Fizioloji yetkinliyin əlamətləri göz qabağında olur. Lakin psixoloji yetkinliyə bunları aid etmək qeyri-mümkündür. İnsanın özünü psixoloji cəhətdən tanıması, daxilinə "pəncərə" açması mürəkkəb məsələdir. Filosoflar dünyada ən böyük yolun öz içimizdən başlayaraq özümüzə doğru getdiyimiz yol olduğunu iddia edirlər. Hegelin təbiri ilə desək, insanın özünü idarə etməsi ən böyük elmdir. Müasir Azərbaycan məktəbində psixologiyanın tədrisi önəmli

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 16-21
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 16-21
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

məsələlərdəndir. Şagird psixologiya güzgüsündə özünü aydınlığı ilə dərk edir. XX əsrin 80-ci illərindən Azərbaycan məktəblərində psixoloji xidmət prosesinə başlanılmışdır. Bu isə məktəbə böyük psixoloji dəstəkdir (Əlizadə, 2004: 267).

Müasir Azərbaycan məktəbində müşahidə olunan psixoloji problemlərdən biri də şagirdlərdə yaşanan müxtəlif fobiyalardır. Fobiyaların müxtəlif modelləri və terapiyaları var. Alman-Amerika psixiatrı E.Lindemann zədə modelinə müvafiq misal gətirir və onun korreksiya yollarını bizə təqdim edir: "Qız birinci sinifdə oxuyarkən ünsiyyətcil idi və parta yoldaşı ilə çox danışırdı. Buna görə müəllimə onu sinifdən çıxarır və o, bütün dərs müddəti qapı arxasında gözləməli olur. Dərsdən sonra müəllimə qızı tibb məntəqəsinə aparır və orada olan tibb bacısından soruşur: "Biz çox danışan qızlarla neyləyirik?" Tibb bacısı isə sakitcə cavab verir: "Onların dillərini kəsirik". Bu qızın bir daha dərsdə söhbət etməməsi üçün kifayət idi. Bundan başqa o, zaman keçdikcə digər insanlarla söhbət qabiliyyətindən məhrum olur, kommunakabelliyi azalır. O, daha çox susur və dinləyir. Onun dərslərə cavab verməsində də çətinliklər yaranır. Tələbə olduqda isə seminarlarda çıxış etməkdən, məruzələr deməkdən çəkinir. O, həm də ailədə də öz hisslərini bölüşə bilmir".

E.Lindemann həqiqəti müəyyənləşdirdikdən sonra qızdan soruşur: "Sən həmin müəlllimə və tibb bacısına neylərdin?" O, deyir: "Onların dillərini çıxarıb bir-birinə bağlayardım, sonra isə tavandan asardım". E.Lindemann deyir: "Bunu elə indi et". Gənc qız yuxarı baxaraq bu səhnəni təxəyyülündə canlandırıb ağladı, daha sonra isə güldü. Bir az keçdikdən sonra isə o, deyir ki, tamamilə razı qalıb və onları azad edə bilər. Bundan sonra gənc qız onlardan qorxmadı və müstəqil söhbət etmək qabiliyyətini əldə etdi (Lindemann, 1984: 146).

Bu metodun ən əsas müsbət cəhəti ondan ibarətdir ki, psixoterapiyanın nəticəsi "burada və indi" prinsipinə əsaslanır.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 16-21
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 16-21
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Qorxu obrazı ilə uğurlu işin yekunu olaraq qısa zamanda qorxu aradan qalxır ki, bu da onun psixosomatik əlamətlərinin itməsində, xəyali obrazların yoxlanılmasında , daha sonra adi həyatda öz təsdiqini tapır.

Psixoloji amillər təhsil həyatında özünü addımbaşı bütün aydınlığı ilə hiss etdirir. Son zamanlar təhsildə, əsasən, uşaqlar, şagirdlər arasında təlim müvəffəqiyyətləri qarşısında qorxu, "xof" anlayışından daha çox bəhs olunur. Psixoloqlar təklif edirlər ki, əgər təhsildə "xof"un aradan qaldırılmasından danışırıqsa, o zaman təhsilə yeni baxışın formalaşmasından, başqa sözlə, məktəbdə şagirdin inkişafına gərəkli olmayan əlavə dərslərin ləğv edilməsi, ibtidai siniflərdə imtahanların ləğv olunması, yuxarı siniflərdə imtahanların asanlaşdırılması, məktəbdə dostluq və əməkdaşlıq mühitinin yaradılması, ali təhsil müəssisələrinə imtahan şərtlərinin yüngülləşdirilməsi, ali təhsil müəssisələrində imtahanların fakültələr üzrə keçirilməsi, müəllimlərə inam mühitinin yaradılması, yəni müəllimlərin kollokviumları və imtahanları şifahi, yazılı və ya test olmaq şərtilə müstəqil keçirməsi, ali təhsil müəssisələrində koordinatorluq sisteminin dəyişdirilməsi (hər müəllim öz fənnindən imtahanda koordinator olmalı) və s. bu kimi başqa məsələlərin tətbiqindən danışmalıyıq (Əliyev, 2017: 231).

Təhsildə psixoloji xidmətin əsas subyekti məktəb psixoloqudur. Psixoloji yardım təcrübəsi təkcə xüsusi bilik və bacarıq tələb etmir. Bu fəaliyyətin uğurla həyata keçməsi üçün müəyyən şəxsi keyfiyyətlərin də mövcudluğu tələb olunur. Xarici ölkə ədəbiyyatında D.Kottler, C.Byud-Jental, İ.Yalom və b. öz təcrübələrini təsvir edərkən psixoloqun psixoloji texnologiyalardan istifadə etməsindən daha çox, şəxsi – empatiya, qayğıkeşlik, tolerantlıq və s. kimi keyfiyyətlərinin fəaliyyətdə uğur bəxş etdiyini qeyd edirlər. Azərbaycan psixiatrları – N.İsmayılov, F.İsmayılov da bu keyfiyyətlərin psixoloqun peşəkar fəaliyyətində uğur kəsb etdiyini

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

vurğulamışlar. Ona görə də müəyyən xarakter keyfiyyətlərinə malik olmaq praktik psixoloqun peşəkar kimi uğurunun əsas məsələlərindəndir. Digər peşələrdə mütəxəssis hazırlığında şəxsi keyfiyyətlərə görə tələblər verilir, lakin psixoloq hazırlığı zamanı bu şəxsi keyfiyyətlər nəinki diqqət mərkəzində saxlanılmalı, həm də qiymətləndirilməlidir. Ona görə də psixoloqun peşəkar kimi təşəkkülündə şəxsiyyətinin məqsədyönlü şəkildə formalaşdırılması prosesləri diqqət mərkəzində olmalıdır. Özündə müəyyən keyfiyyətlərin formalaşdırılmasının motivasiyası şəxsiyyətin özünüqiymətləndirmə, özü haqqında real təsəvvürlər və özü haqqında ideal təsəvvürləri kimi şəxsiyyət strukturlarından asılıdır. Bütün bunlar Mən-konsepsiyada vəhdət təşkil edir (Əhmədova, 2017: 106).

## Ədəbiyyat

1. Nesbitt, Dzh., Eburdin, P. (1992). Chto nas zhdot v 90-ye gody. Megatendentsii. God 2000. M.: Respublika, 416 s. ISBN 5-250-01734-7
2. Əlizadə, Ə.Ə. (2004). Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika nəşriyyatı, 432 s.
3. Lindemann, E. (1984). Psikhologiya emotsiy. Teksty. Pod red. V.K.Vilyunasa. Moskva.
4. Əliyev, M.S. (2017). “Qorxu reallığı” illüziyası: təbiilik yoxsa sünilik. Bakı Qızlar Universitetinin Elmi əsərləri. Bakı, № 3, s.227-231.
5. Əhmədova, R.İ. (2017). Psixoloqun peşəkar kimi dinamikası. “Western Caspian” University. Scientific Bulletin. № 4.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 22-25
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 22-25
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Gozel Aliyeva**
Baku State University
PhD student
gevaali1@gmail.com
Orcid: https://orcid.org/0009-0001-3788-1142

# THE INFLUENCE OF ASSESSMENT IN PUPİLS' MOTIVATION

***Keywords:*** *pupil, motivation, assesment, education, result*
***Açar sözlər:*** *şagird, motivasiya, qiymətləndirmə, təhsil, nəticə*

Assessment is a crucial component of learning. By implementing it, the teacher can gain a complete understanding of how key goals are achieved. Evaluation aids in providing necessary feedback to parents, leaders, and public opinion.Also, assessment should help the student in the formation of an adequate self-esteem, self-confidence, and own success (Markova, Matis, Orlov, 1990: 16). The opinion of the teacher about the child often affects his self-perception. Each reduced score reduces in the eyes of the child his own value. Without separating himself from the results of his activity, the child sees the affirmation in a reduced assessment that he is bad, worthless. And, conversely, with sufficiently high marks, the child feels capable, thereby forming a positive self-perception. Evaluative activity of the teacher can also have an impact on achievement motivation. In a situation of constantly negative evaluation, the motive for achieving success weakens (Martyn, Clare, Karen, 2011: 449). The desire for success is first replaced by a state of tension, and then by an indifferent attitude. School anxiety is also directly related to grades and grades. Schoolchildren often have a fear of not meeting the

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

expectations of others, sometimes there is a fear of self-expression, a fear of the teacher. Studies show that the biggest fear in school is the fear of a test situation. If the student constantly receives a negative assessment, then the experiences of failure provoke the appearance of self-doubt, as a result of which the level of claims decreases, which prevents the formation of a positive attitude towards learning activities, and motivation fades. Significant influence is exerted by the assessment and mark on the relationship of children with others. Grades can be the cause of high and low prestige among peers, a source of conflict in school and family, and can also cause suicide (Ksendzova, 2000). If failure is persistent and the child constantly experiences reproaches, punishments, he is looking for a way to maintain existing relationships and prevent conflicts. There is also an opinion that some kind of grades help to carry out social selection: "successful socialization" - excellent students - go to universities, get access to prestigious professions and positions, high salaries, "losers" slide to the bottom of society (criminals, beggars, unemployed, homeless ). And often it all starts with school grades. It is quite possible that an unsuccessful student may eventually become unsuccessful in life.The question may arise, why not put bad marks at all now? No, sometimes it is necessary to put, but marks and assessments must be objective. It should be remembered that a negative assessment is not a punitive measure, but a means to guide and correct the student's learning activities. Evaluation should be objective, understandable to the student, understandable to parents, transparent, criterial (Tsukerman, 1997). Speaking about evaluation, the following points should also be taken into account: it is advisable to first give the child the opportunity to evaluate the results of his own activity, since if the adult’s evaluation precedes the child’s, then the child either

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

uncritically accepts it or rejects it affectively; the assessment should not be of a generalizing nature; it is necessary to establish and observe objective assessment criteria, which should be clear not only to the teacher, but also to the students. As practice shows, not all types of assessment can increase motivation. Dissatisfaction with the mark, and most importantly, a lack of understanding of its content cause negative emotions and a decrease in interest in learning. Only such an assessment that provides reliable information about the actual level of preparation and makes it possible to see achievements, find mistakes and understand what needs to be done for further success can positive influence. It is the obtaining of objective learning outcomes that is a necessary condition for self-assessment, and self-analysis increases the motivation for further knowledge acquisition and personal development. In turn, the system of acquired knowledge affects the level of motivation, vital interests and needs, views and beliefs, and the outlook of the individual. Hidden processes of self-esteem, self-correction, self-expression and goal-setting are manifested as an aspect of personal development (Guskey, 2003: 8).

## Reference

1. Markova, A.K., Matis, T.A., Orlov, A.B. (1990). Formirovaniye motivatsii ucheniya. Moskva: Prosveshcheniye, 192 p.
2. Martyn, L., Clare, W., Karen, L. (2011). Terri Passenger and Kieron Sheehy The Psychology of Education 2nd edition, This edition published. Routledge, 449 p.
3. Ksendzova, G. (2000). "Shkol'naya otmetka: stimulyator umeniya ili "damoklov mech"?" "Direktor shkoly", zh. № 5.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

4. Tsukerman, G.A. (1997). "Chto otsenivayet ob"yektivnaya otsenka?" "Psi-khologicheskaya nauka i obrazovaniye" zh. № 4.
5. Guskey, T.R. (2003). How Classroom Assessments Improve Learning. University of Kentucky, 8 p.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Ümid Həsənov**
Gəncə Dövlət Universiteti
doktorant
hesenov2200@gmail.com

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ VƏ ONLARIN ƏSAS SƏCİYYƏSİ

***Açar sözlər:*** *kiçik sahibkarlıq, orta sahibkarlıq, müəssisə, iqtisadi struktur, innovasiya*
***Keywords:*** *small business, medium business, enterprise, economic structure, innovation*

Bu gün kiçik və orta sahibkarlıq müəssisələri məşğulluq və istehsalın artırılması, işsizliyin qarşısının alınması, bölgələr-arası işsizliyin aradan qaldırılması və iri müəssisələri tamam-lama rolları ilə iqtisadi və sosial həyatın əvəzsiz elementinə çevrilmişdir. Kiçik və orta sahibkarlıq, xüsusilə gəlir və iqtisadi artımın aşağı olduğu inkişaf etməkdə olan iqtisadiyyatlarda mühüm iqtisadi rol oynayır.

Yeni ixtiraların və ideyaların mənbəyi olan KOBİ-lər iri sənaye müəssisələrinin tamamlayıcısı və əvəzsiz dəstəkçisi, sosial və siyasi sistemlərin sabitlik və tarazlığının elementi, liberal iqtisadiyyatın və demokratik cəmiyyətin əsas sığor-talarından biridir. Məşğulluq yaratmaq, innovasiya, yeni iş sahələri yaratmaq, xarici ticarətə müsbət töhfə vermək və bərabər imkanlar təmin etmək kimi iqtisadi töhfələri ilə yanaşı, KOBİ-lər orta sinfi gücləndirmək və kənddən şəhərlərə (miqrasiyanın)  axının, yəni urbanizasiya prosesinin qarşısını almaq kimi sosial təsirlərə də malikdir.

Bu gün bütün ölkələr tam rəqabətin təmin edilməsində, ixtisaslı kadrların hazırlanmasında, siyasətin formalaşdırıl-masında və strategiyaların müəyyən edilməsində mühüm yer

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

tutan KOBİ-lərın sosial birliyə, məşğulluğa, regional və yerli inkişafa və iqtisadi artıma verdiyi töhfələrdən xəbərdardır. KOBİ-lərın bu əhəmiyyəti bütün ölkələrdə sağlam KOBİ strukturu yanaşmasını qəbul etmişdir. Möhkəm KOBİ strukturu sosial sülhün, siyasi sabitliyin və iqtisadi inkişafın ən mühüm təminat, əvəzolunmaz şərt və təməl daşlarından biri kimi tanınır.

KOBİ-lər texniki inkişaflara daha yaxındırlar və tələb dəyişiklikləri və müxtəliflik baxımından onlara daha asan uyğunlaşa bilirlər. Dəyişikliklər etmək iri müəssisələr üçün çətin ola bilər və uyğunluq əldə etmək uzun müddət çəkə bilər. Bununla belə, KOBİ-lərdə bu uyğunlaşmalara nail olmaq daha asandır.

Kiçik biznesin iri bizneslə müqayisədə iki mühüm rəqabət üstünlüyü də var. Birincisi, bu, müştərilər və işçi heyəti ilə daha sıx əlaqələr qurmaq bacarığıdır. Digər bir üstünlük isə marketinq, istehsal və xidmət sahəsində iri şirkətlərə nisbətən daha çevik olmalarıdır. Bu üstünlüklər dəyişikliklərə və inkişafa daha tez uyğunlaşmaq üçün çox faydalıdır.

KOBİ-lər fəaliyyət göstərdikləri bazarlarla yaxından tanış olurlar. Onlar bazar meyarlarını və ehtiyaclarını böyük şirkətlərdən daha aydın görə bilirlər. Eyni zamanda haqqında danışdıqları bazar müştərilərini daha yaxından tanıyır, isti münasibətlər qururlar. Onların müştərilərlə əlaqələri də böyük bizneslərdən daha uğurlu çıxış edə biləcəkləri bir sahədir. Müştərini yaxından tanıdıqları üçün məhsullar onların ehtiyaclarına uyğun istiqamətləndirilə bilər. Buna görə də onlar istehsal, marketinq və xidmət sahəsində iri müəssisələri qabaqlayırlar.

Çevik bir quruluşa sahib kiçik və orta bizneslər uyğunlaşma baxımından böyük bir üstünlüyə sahibdirlər, lakin qarşıya çıxan mənfiliklərə qarşı daha güclü mövqe tuturlar.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Kompüterləşdirilmiş texnologiyalar (rəqəmsal idarəetmə, robot texnikası və s.) böyük həcmdə istehsalda daha çox çevikliyə imkan verir. Qloballaşan dünyada şirkətlər uzun müddət mövcud olmaq və yüksək keyfiyyətli xüsusi məhsulların istehsalı üçün yüksək gəlir əldə etmək potensialına malik yüksək həcmli kütləvi istehsaldan keçirlər. Belə xüsusi istehsal və yüksək keyfiyyətli məhsullar əsasən xidmət yönümlüdür. Bu istehsal növü KOBİ-lərin asanlıqla həyata keçirə biləcəyi çevikliyə malikdir.

Amerika Milli Elm Fondunun ABŞ-da apardığı araşdırmaya görə, tədqiqat və inkişaf fəaliyyətlərinə xərclənən hər dollara görə kiçik firmalar böyük firmalardan 24 dəfə çox innovasiya istehsal edir. Bunun səbəbi kiçik şirkətlərin tez bir zamanda tədqiqat layihələrini həyata keçirə bilməsidir. Böyük şirkətlər ağırdır, çünki layihələri genişdir və bir çox insan tərəfindən həyata keçirilir.

İş yerində qərar qəbul edənlər nə qədər çox olarsa, məhsuldarlıq da bir o qədər azalır. Kiçik şirkətlərdə qərar qəbul edənlər istehsal qərarlarının tez və dəqiq qəbul edilməsi üçün işçiləri istehsal proseslərinə cəlb edirlər. Böyük şirkətlər böyük iyerarxik qərar qəbuletmə mexanizminə malikdirlər və qərar qəbul edənlər istehsal xəttindən çox uzaqdadırlar, ona görə də onlar məsələdən xəbərsiz olduqlarından və ya dəyişən bazar şərtlərinə uyğunlaşmağa gecikdiklərindən səhv qərarlar verə bilərlər.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 29-32
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 29-32
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Günel Nəzərova**
Bakı Slavyan Universiteti
doktorant
gunel.nazar@gmail.com

# YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA ÖZÜNÜTƏRBİYƏNİN ƏHƏMİYYƏTİ VƏ TƏŞKİLİ YOLLARI

***Açar sözlər:*** *siyasi mədəniyyət, tələbələr, məktəb, təhsil, özünütərbiyə*
***Keywords:*** *political culture, students, school, education, self-upbringing*

Siyasi mədəniyyətin formalaşmasında özünütərbiyənin rolu böyükdür. Özünütərbiyə dedikdə, şəxsiyyətin (şagirdin, uşağın) ictimaiyyətin təqdir etdiyi müsbət keyfiyyətləri və davranış təcrübəsini özündə təkmilləşdirmək; mənfi sifətlərdən və naqis hərəkətlərdən azad olmaq üçün öz üzərində sistemli, məqsədyönlü və planlı şəkildə apardığı dərk edilmiş fəaliyyət anlaşılır. Tərbiyə hər bir tərbiyə olunanı lazımi qaydada hərəkət edib etmədiyini üzərində düşünməyə məcbur etməlidir. Bu təhrik etmə, düşündürmə və nəzarət özünütərbiyənin əsasını təşkil edir. Özünü dərk etmə, özünü başa düşmə özünütərbiyənin ilk əsas pilləsidir. Özünü dərk edən insanın özünü yenidən tərbiyə etməsi ondan həm də iradi güc tələb edir. Yəni insan lazım olan zəruri 2 hərəkətləri icra etməyi öyrənməyə məcbur etməlidir. Çünki insanın malik olduğu hərəkət və davranışlar yeni qaydada hərəkət etməyə mane olur, fəaliyyəti məhdudlaşdırır. Bu isə insanın hərəkət və davranışlarında ziddiyyətlərin meydana gəlməsinə səbəb olur. Bu daxili hərəkətəgəlmə isə özünütərbiyənin, özünütərbiyə meyillərinin

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 29-32
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 29-32
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

əsasını yaradır. İnsan özünü, hərəkət və davranışlarına nəzər salır, təhlil edir. Müsbət və mənfi keyfiyyətlərini dərk edir. Mənfi keyfiyyətlərini aradan qaldırmaq arzusu yaranır. Özündə müsbət keyfiyyətlər olmasını istəyir. Bu da şəxsiyyətin formalaşmasında özünütərbiyə metodudur. Özünütərbiyə məktəb illərindən başlanır. Belə ki, aparılan bütün tərbiyə işi özünütərbiyə tələbləri yaratmalıdır. Hər şagird verilən əxlaqi tələbi özünün hərəkət və davranışlarında formalaşdırmağa çalışmalıdır. Bu formalaşdırma səyi, fəaliyyəti özünütərbiyədir. Özünütərbiyə, göründüyü kimi, insanların daxili səyləri ilə bağlıdır. “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır” (Azərbaycan müəllimlərinin XIV qurultayı, 2013: 180).

Bu daxili səylər isə xarici təsirlərin məzmunu ilə şərtlənir. Daxili səy həm də insanların psixi inkişafı ilə bağlıdır. İnsan öz psixi inkişafına nəzarət etdikdən sonra özünütərbiyə başlanır. Ona görə də insanların şüurlu surətdə özünütərbiyəsi yetkinlik, insanın özünüdərk etməsi dövründən başlanır. Özünüdərketmə dövründə tələbat özünütərbiyə metoduna çevrilir. Ancaq həyat, yaşamaq, yəni özünütərbiyə obyektiv, real həyatı tələbata çevrilir. O, yenidən tərbiyə vasitələri axtarır, özündə yeni keyfiyyətlər formalaşdırmanın zəruriliyini dərk edir. Bunun üçün zəruri olan tələbatlar özünütərbiyə motivinə çevrilə bilər. Bu tələblər insanların yaşadığı və fəaliyyət göstərdiyi maddi həyatdan doğan tələbatlardır. Məhz bu tələbatlar əsasında insanlar öz hərəkət və davranışlarında yeni keyfiyyətlər formalaşdırır. Artıq şəxsiyyət öz-özündə yeni əxlaqi keyfiyyətlər formalaşdırmağa səy göstərir. Bu isə özünütərbiyəni tərbiyədən fərqləndirən əsas və başlıca şərtdir. Özünütərbiyə anlayışı geniş mənada özünütəhsil anlayışını da əhatə edir. Dar

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

mənada isə tərbiyə cəmiyyətin və fəaliyyətin tələbi əsasında özünütərbiyəni mənəvi keyfiyyətlərin formalaşdırılması və ya hər hansı əxlaqi keyfiyyətin adət, davranış, rəftarında çıxarması prosesidir. Özünütərbiyənin özünüdərketmə, özünü məcbur etmə, özünənəzarət, özünü ələ alma kimi anlayışları mövcuddur.

Yuxarı sinif şagirdlərində "siyasi mədəniyyət"in formalaşmasında özünütərbiyənin rolu əvəzsizdir. Yəni bu işin aparılması zamanı təkcə müəllimin fəaliyyəti azdır. Şagir özündə bu mədəniyyəti formalaşdırmaq istəməsə, müəllim yalnız öz gücünə bunu edə bilməz. Müasir şəraitdə şagirdlərin özünütərbiyəsinin tədqiqi olduqca vacib məsələlərdən biridir. Bu proses çox mürəkkəb filogenetik və ontogenetik inkişafa müxtəlif dəyişmələrə malikdir. Başqa bir tərəfdən isə özünütərbiyənin yaşa uyğun dəyişməsi, yeni forma və məzmun kəsb etməsi ayrıca götürülmüş bir proses olmayıb, şəxsiyyətin inkişafının ümumi istiqamətləri ilə şərtlənir. Əgər şagirdlər özlərini tərbiyə etmək istəyirlərsə, onlar cəmiyyətin məhdudiyyətlərini aşmalı və öz tələbatlarını ödəməlidirlər. Şagirdlərə ətraf mühit, şərait mane olmasa, mahiyyət etibarı ilə onlar daimi şəxsi inkişafa doğru gedir, yaradıcılığa, özünü tapmağa meyl göstərir. Aparılmış tədqiqatlar belə nəticəyə gətirib çıxarır ki, şagirdlərin malik olduğu potensialların realizə eilməsi təbiidir və vacibdir. Özünütərbiyə şagirdlərin öz şəxsi imkanlarına uyğun şəxsiyyət olması kimi xarakterizə edilir. Bu səviyyəyə çatmış yuxarı sinif şagirdi bütün istedadını, qabiliyyət və potensialını tam şəkildə istifadə etməyə çalışır. Beləliklə, siyasi mədəniyyəti formalaşdırdıqda özünütərbiyə şagirdlərin öz potensiallarından maksimum istifadə etməklə əldə etdiyi zirvədir. Onlar öz təbiətlərinə, milli mənəvi dəyərlərinə sadiq olmalıdırlar (Əmirov, 2008: 286).

Aparılmış tədqiqatlar göstərir ki, şəxsiyyətin və xarakterinin formalaşması məhz yeniyetməlik yaş dövründə baş verir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Odur ki, şəxsiyyətin siyasi cəhətdən özünütərbiyəsi yalnız şəxsiyyətin formalaşmasına düzgün istiqamətlənməsi ilə bağlı olmayıb, bir sıra praktiki məsələlərin həlli istiqamətini də özündə ehtiva edir. Çox zaman yeniyetmələrin özünü aşağı qiymətlənmdirməsi, özünü bir şəxsiyyət kimi lazımınca dərk edə bilməməsi, nəticədə, onlarda siyasi təfəkkürün formalaşmasına mane olur. Təlim fəaliyyətlərində utancaqlıq öz mövqeyini təsbit edə bilməmək, sosial baryerlərin yaranması və nəhayət, özünügerçəkləşdirə bilməmək və s. kimi halları psixoloji baxımdan qiymətləndirsək, məlum olar ki, bu bilavasitə özünüdərk edə bilməmək, özünü səhv qiymətləndirmə fonunda reallaşır.

## Ədəbiyyat

1. Azərbaycan müəllimlərinin XIV qurultayı. (2013). Bakı: Çaşıoğlu, 304 s.
2. Əmirov, M.M. (2008). Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi. Pedaqogikaelmləri doktoru dis. Bakı, 286 s.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 33-37
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 33-37
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Gülarə Quliyeva**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
dissertant
vefa.abdulla@mail.ru

# METAFORALAŞMA VƏ METAFORİK NƏZƏRİYYƏLƏR

***Açar sözlər:*** *temporal metafora, konseptual metafora, deskriptiv metafora, koqnitiv metafora*

***Keywords:*** *temporal metaphor, conceptual metaphor, descriptive metaphor, cognitive metaphor*

Linqvistik üslubiyyatda və semasiologiyada metafora leksik semantika çərçivəsindən kənara çıxmayan dil hadisəsi kimi qəbul edilir. Hər iki yanaşmada metaforanın obrazlı potensialı, metafora mexanizminin kontekstdən asılılığı, metaforalaşma prosesində müəyyən əlamətlərin seçimi kimi məsələlər nəzərə alınır. Hər iki istiqamətdə hər şeydən öncə dilin obrazlılıq sisteminin fəaliyyətində müntəzəm təzahürlər tədqiqatçıların diqqət mərkəzində olur. Linqvistik üslubiyyatda tipolojiləşmə məcaz və obraz kateqoriyaları əsasında gerçəkləşir. Semasioloji istiqamətdə metaforanın yaranmasında müntəzəmliyin təzahürü sözün semantik variasiyası mexanizmi aspektində, metaforik köçürmə istiqamətində, eləcə də eyni leksik-semantik paradiqmaya məxsus sözlərin dəyişməsində tipolojiləşir (Ilyukhina, 2010: 12-13).

1. Temporal metafora dilin digər bədii ifadə vasitələri ilə bərabər subyektiv nəqletmənin mühüm vasitəsi kimi çıxış edir.
2. Temporal metafora insan təfəkkürünün və dilinin mühüm hadisələrindən olmaqla insanın dünyanı dərk etməsində və təsvirində önəmli funksiya daşıyır.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 33-37**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 33-37**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

3. Temporal metafora aralarındakı oxşarlığa, analogiyaya əsaslanmaqla iki hadisənin, prosesin qarşılıqlı təsirindən və ya müqayisəsindən ibarət olmaqla, eyni zamanda həm mental, həm də dil mexanizmidir.

4. İngilis və Azərbaycan dillərində temporal metaforaları formalaşdıran əsas anlayışlara "insan", "heyvan", "məkan", "su", "canlı" və "predmet" sahələri aid edilə bilər. "İnsan", "heyvan", "predmet" anlayışlarına əsaslanan metaforik modellər qarşılaşdırılan dillərdə oxşar semantik dolğunluqla səciyyələndirilə bilər.

5. İngilis və Azərbaycan dillərində temporal metaforik sahə semantik və sözyaratma proseslərinin qarşılıqlı əlaqələri əsasında formalaşır. Hər iki metaforik sahənin nüvəsində "zaman – insan" metaforik modeli əsasında yaranan temporal metaforalar dayanır, periferik hissəyə "zaman – predmet" metaforik modeli əsasında yaranan temporal metaforalar aid olur.

Konseptual metafora nəzəriyyəsinə əsasən metaforikləşmə və ya metaforizasiya biliyin iki struktur növünə əsaslanır: *mənbə sahəsi* ("source domain") koqnitiv strukturu və *hədəf sahəsi* ("target domain") koqnitiv strukturu. Metaforikləşmə prosesində müəyyən hədəf sahələr mənbə sahələrin nümunəsi üzrə strukturlaşır. Başqa sözlə, *metaforik proyeksiya* ("metaphorical mapping") və koqnitiv inikas ("cognitive mapping") baş verir. Metaforik proyeksiyanın izləri metaforik nəticələr şəklində cümlənin və ya mətnin semantikası səviyyəsində aşkarlanır. Məsələn, ... *hər bir keçid dövründə xalqların kütləyə çevrilməsi prosesi olur. Biz yuxarıların ölümcül oyunları üçün yalnız lal sürü rolunu oynayırıq* kimi fikir və ifadələrdə *xalq // cəmiyyət // toplum* (hədəf) – *kütlə // sürü* (mənbə) metaforası adresatın diqqətini "asılılıq, qeyri-müstəqillik, passivlik" ideyasına, fikrinə yönəldir ki, bu da "sürü" koqnitiv strukturunun tərkib hissəsi kimi çıxış edir:

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 33-37
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 33-37
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

dünya haqqında biliklərimiz bizə deyir ki, *sürü* çoban tərəfindən idarə olunur (Lakoff, 1999).

Konseptual metaforanın əsasını konseptual sahələr vasitəsilə inikas və proeksiya təşkil edir. Bu inikaslar qeyri-simmetrikdir və tam deyildir. Hər bir inikas mənbə-sahədəki mahiyyətlərlə hədəf-sahədəki mahiyyətlər arasında invariantlıq prinsipi əsasında ontoloji uyğunluqların təsbit edilmiş dəstidir. İnvariantlıq prinsipi mənbə-sahə strukturunun öz strukturuna malik hədəf-sahəyə proyeksiyasından ibarətdir. Hər bir metaforik inikas metaforik anlayış və ya konseptə əsaslanır ki, bu da insanın idrak prosesinda formalaşır, fiziki və mədəni əsasa malik olmaqla sosial cəhətdən motivli olur. Konseptual metafora nəzəriyyəsinin müəllifləri inikasın iki tipini fərqləndirirlər. Konseptual-koqnitiv metaforalar və obraz-inikaslar. Bu zaman konseptual metafora ontoloji, struktur və oriyentasion metafora kimi başa düşülür. Beləliklə, metaforanın ikili təbiəti aşkarlanır. Bu o deməkdir ki, metafora eyni zamanda gerçəkliyin obrazlı inikası olmaqla yanaşı, həm də fərdin koqnitiv strukturunun elementidir.

Deskriptiv (və ya deskriptor) metafora nəzəriyyəsi A.N.Baranovun adı ilə bağlıdır. Deskriptiv nəzəriyyə koqnitiv metafora nəzəriyyəsinə əsaslansa da, burada başqa kateqorial aparatdan istifadə edilir. Həmin kateqorial aparat metaforanın işlənmə kontekstlərinin maşın vasitəsilə emalında daha rahat hesab edilir. Koqnitiv metafora nəzəriyyəsini inkişaf etdirməklə, A.N.Baranov inikas funksiyasının "çıxış sahəsi" ilə onun "giriş sahəsi" arasında metaforik proyeksiya olduğunu aşkarlayır. Çıxış sahəsi ilə giriş sahəsinin qarşılıqlı əlaqəsində daha az stabil yaradıcı metaforalardan tutmuş cəmiyyətin mədəni ənənələrində təsbit olunmuş sabit işlənmiş (köhnəlmiş) metaforalara qədər müxtəlif variasiyalar yarana bilir (Baranov, 2003: 76). Çıxış və təyinat sahələrinin elementləri mürəkkəblik dərəcəsinə görə müxtəlif ola və metaforik proyeksiyada, yəni

öz mənalarında birmənalı olmaya bilər. Bu hadisəni A.N.Baranov metaforanın "koqnitiv sayrışması" hesab edir. Müəllif metaforanın təsviri üçün semantik deskriptorlar dilini dövriyyəyə daxil edir. Çıxış sahəsi üçün siqnifikativ deskriptorlar, hədəf sahə üçün denotativ deskriptorlar nəzərdə tutulur. Deskriptorları "normaya salınmış leksem altçoxluqları" təmsil edir ki, onlar üçün çoxmənalılıq, omonimlik, sözdəyişmə xüsusiyyətləri səciyyəvi deyildir (Baranov, 2003: 79).

Metaforik nəzəri təmayüllər və yanaşmalar arasında interaksiya nəzəriyyəsi mühüm yer tutur. Lakin bir çox tədqiqatçılar bu istiqamətə fərqli müstəvidə yanaşaraq, interaksiya nəzəriyyəsini müasir dil fəlsəfəsi sahəsinə aid edirlər. Əgər deskriptiv metafora və metaforik modelləşdirmə nəzəriyyələri C.Lakoff və M.Consonun nəzəriyyəsinə əsaslanırdısa, interaksiya nəzəriyyəsi A.A.Riçards, M.Blek, C.Hausman, P.Riker və K.Bülerin metaforaya yanaşmalarına əsaslanırdı.

Metafora nəzəriyyələrinin tədqiqi tarixini araşdıran mütəxəssislər interaksiya nəzəriyyəsinin bir çox qüsurlarını da göstərmişlər. Mühüm qüsurlardan biri bundan ibarətdir ki, metaforaya tam müstəqil cümlələr şəklində nitq parçaları kimi yanaşılır. Başqa sözlə, metafora predikativlikdən kənar nəzərdən keçirilir. Yalnız nadir hallarda ayrıca söz, söz birləşməsi, mürəkkəb cümlənin hissəsi metafora ola bilər, mətn şəklində metafora isə çox nadir halda ola bilər. Bu nəzəriyyənin başqa bir nöqsanı ondan ibarətdir ki, metafora informativ məzmundan məhrum edilir. Halbuki ən "köhnəlmiş" metafora belə informativ komponentə malik olur.

## Ədəbiyyat

1. Ilyukhina, N.A. (2010) Metaforicheskiy obraz v semasiologicheskoy interpretatsii. Moskva: Flinta: Nauka, 320 s.
2. Lakoff, G. (1999). Philosophy in the Flesh: The Embodied

Mind and Its Challenge to Western Thought. M.Johnson. New York: Basic Books, 640 p.
3. Baranov, A.N. (2003). O tipakh sochetayemosti metaforicheskikh modeley. Moskva: Voprosy yazykoznaniya. № 2, c.73-94.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 38-40
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 38-40
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Günel Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
dissertant
aliyeva10_@hotmail.com

# TƏTBİQİ DİLÇİLİKDƏ PRESEDENTLİK ANLAYIŞI

***Açar sözlər:*** *Onomastika, antroponim, mətn, praqmatika, lüğəvi məna*
***Keywords:*** *Onomastics, antroponym, text, pragmatics, linguistic meaning*

Nəzəri və tətbiqi dilçilikdə presedentlik termini indi geniş istifadə olunur. Presedent mətn anlayışını dilçiliyə Y.N.Karaulov daxil etmişdir. Müəllif belə mətnin üç xüsusiyyətini qeyd etmişdir. Presendent mətn öyrənmə və emosional baxımdan əhəmiyyətlidir. Mətnin mənası müəyyən şəxsdən həm əvvəlkilərə, həm də onun müasirlərinə bəlli olur. Mətnə müraciət həmin şəxsin diskurslarında təkrar olunur (Karaulov, 2003: 216).

Presedent mətndən başqa "presedent hökm", "presedent şərait" və "presedent ad" anlayışlarından da istifadə olunur. Bu anlayışlar da mətnin təyini zamanı irəli sürülən meyarlarla müəyyənləşdirilir.

D.B.Qudkov milli, eləcə də dil şüurunun və formalaşmasında vacib rol oynayan və beləliklə, davranışın dəyər və modeli çərçivəsindən təyin edən, mədəni informasiyanın saxlanması və ötürülməsinin özəyində duran adlar qrupunu presedent adlar kimi qəbul etmişdir (Bakastova, 1984: 142).

Fərdin və ya millətin koqnitiv bazasına daxil olan fərdi adlar presedent statusu alır. Presedent adın adlandırdığı "mədəni predmet" linqvomədəni birliyin bütün üzvləri üçün invariant təsəvvür yaradır (Gorbunova, 2008: 146).

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 38-40
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 38-40
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Geniş dairədə məlum olan mətnlə, şəraitlə, müəyyən etalon keyfiyyətlərlə bağlı adlar presedent adlardır. Məsələn, Hamlet, Romeo, Cülyetta mətnlə, Robinzon Kruzo, Kolumb şəraitlə, Robin Qud etalon keyfiyyətlə presedentləşmişdir.

Presedent hökm nitq fəaliyyətində təkrar canlandırılan və komponentlər mənasının cəminin ifadə olunan mənaya bərabər olmayan hökmüdür. Müxtəlif xarakterli mətnlərdən götürülmüş sitat, aforizm və atalar sözləri presedent hökmlərə aiddir (Krasnykh, 1997: 65).

Hər hansı “etalon”, “ideal” şəraitə presedent şərait deyilir. Belə şərait presedent hökm və ya adla adlandırılır (Krasnykh, 2002: 45).

Predmetin diferensial əlamətləri müəyyən xüsusiyyətlərin mürəkkəb sistemini əmələ gətirərək onu oxşar predmetlərdən fərqləndirir. Əlamətlər predmetin zahiri və daxili tərəflərinə aid olub, presedent şərait vasitəsilə aktuallaşa bilir. Presedent adda ifadə olunan qiymət emotivlik kəsb etsə də, tam obyektivlik qazanmır (Gudkov, 1999: 129).

Bütün qeyd olunan fenomenlər bir-biri ilə sıx bağlıdır. Onlar, yəni “presedent hökm”, “presedent şərait”, “presendent ad” üslubiyyatda “allüziya” anlayışında birləşdirilir (Petro-chenko, 2005: 11).

Həmin anlayışlardan hər hansı birinin aktuallaşması digərlərinin bir qismini də aktuallaşdırır. Presedent fenomenlər mənşə ümumiliyinə malikdir, bir-birinin simvolu kimi çıxış edir (Gudkov, 1999: 108). Məsələn, Romeo presedent adı “Romeo və Cülyetta” presedent mətnini aktuallaşdırır, onun simvolu funksiyasını yerinə yetirir.

Presedent fenomenlərin vacib funksiyası müəyyən davranış tərzini formalaşdırmaq və ya təyin etmək, resepientin dil reaksiyasına səbəb olmaqdır. Presedent mətnlər hazır intellek-tual-emosional bloklar, stereotiplər, müqayisə nümunələridir. Onlar dil fərdinin “faktoloji” kontekstdən “mental” kontekstə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

keçidlə bağlı fəaliyyətini asanlaşdırır və sürətləndirir (Karaulov, 2003: 220).

## Ədəbiyyat

1. Karaulov, YU.N. (2003). Russkiy yazyk i yazykovaya lichnost'. 3-ye izd. Moskva: Yeditorial URSS, 261 s.
2. Bakastova, T.V. (1984). Imya sobstvennoye v khudozhestvennom tekste: Ob imeni zaglavnogo personazha romana F.Sk.Fitsdzheral'da "Velikiy Getsbi". Odessa: OGU, Russkaya onomastika, s.157-160.
3. Gorbunova, Ye.N. (2008). Lingvokul'turnyy kommentariy pretsedentnykh fenomenov v angloyazychnom khudozhestvennom tekste: avtoref. dis. kand. filol. Nauk. Samara, 21 s.
4. Krasnykh, V.V. (1997). Kognitivnaya baza i pretsedentnyye fenomeny v sisteme drugikh yedinits i v kommunikatsii. D.Gudkov, I.V.Zakharenko [i dr.]. Vestnik MGU. №3, s.62-75.
5. Krasnykh, V.V. (2002). Etnopsikholingvistika i lingvokul'turologiya. Moskva: ITDGK "Gnozis", 284 s.
6. Gudkov, D.B. (1999). Pretsedentnoye imya i problemy pretsedentnosti. Moskva: Izd-vo MGU, 152 s.
7. Petrochenko, L.A. (2005). Ob assotsiativnykh osnovakh formirovaniya allyuziy. Inostrannyy yazyk i inoyazychnaya kul'tura v obrazovanii: tendentsii, problemy, resheniya. Sbornik nauchnykh statey po materialam IV Vseros. nauch.-metod. Konf. TGPU (14-15 aprelya 2005 g.). Tomsk, s.10-13.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 41-44
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 41-44
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Şəlalə Nəbiyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
elekberlimehemmed@mail.ru

# BÜDCƏ - VERGİ SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *büdcə gəlirləri, vergidaxilolmaları, vergi-daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi, Dövlət Neft Fondundan transfer, büdcə xərcləri, kölgə iqtisadiyyatı*

***Keywords:*** *budget revenues, tax revenues, the share of tax revenues in budget revenues, transfers from the State Oil Fund, budget expenditures, shadow economy*

Bazar münasibətləri şəraitində iqtisadiyyatın inkişafı, dövlətin həyata keçirdiyi iqtisadi siyasətdən və onun tərkib hissəsi olan büdcə-vergi siyasətinə bağlı olmaqla yanaşı, dövlət büdcəsindən iqtisadiyyata və investisiya qoyuluşlarına ayrılan xərclərin həcmindən birbaşa asılıdır.

Ümumiyyətlə, investisiya xərclərinin artırılması müasir şəraitdə dövlətin əsas iqtisadi siyasətini təşkil edir, bunu ümumidaxili məhsuldakı investyisiyaların xüsusi çəkisinə nəzər yetirdikdə görmək olar.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 41-44**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 41-44**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

**Cədvəl l.**
**ÜDM -də və büdcə gəlirlərində vergilərin payı**
(mln.man.).

| *Göstəricilər* | *2021* | *2022* | *202 3* |
|---|---|---|---|
| *ÜDM* | **93203,2** | *133972,7* | *123005,5* |
| *Büdcə gəlirləri* | *26396,3* | *30679,6* | *35577,8* |
| *Vergi daxilolmaları* | *8500,0* | *15 000,0* | *16127,0* |
| *Vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi, %-lə* | *9,2* | *11,2* | *13,1* |
| *Vergidaxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi, %-lə* | *32,3* | *40,9* | *45,3* |

Cədvəl **www.cbar.az** və taxes.gov.az saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır (1).

Son on ildə respublikamızda həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatında əhəmiyyətli inkişaf qeydə alınmışdır. Hazırda Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin yüksəlişinə verən əsas faktor neft sektorundan əldə olunan gəlirlərdir. Məlumdur ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə büdcə gəlirlərində vergi daxilolmalarının payı 75-80%-dir. Azərbaycan Respublikasında büdcə gəlirlərində vergi daxilolmalarının payı 2023-cü ildə 45.3% olmuşdur. 2021-ci ilə nisbətən 2023-cü ildə büdcə gəlirlərində vergidaxilolmalarının payı 13% artmışdır (2).

2021-ci ildə dövlət büdcəsinin vergidaxilolmaları üzrə 8.5 mlyard manat vəsait daxil olub. 2020 –ci ildə müqayisədə 15.5 % çox olub. Cəmi vergi daxilolmalarının büdcə gəlilərində payı 2021-ci ildə 32.3 % təşkil edir. Bu göstərici 2020-ci ilin müvafiq dövründən (29.9 %)2.4 % çox olub.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 41-44
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 41-44
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Adətən, dövlət xərcləri-büdcə çərçivəsində həyata keçirilir və bütün daxilolmalar (neft və qeyri-neft) dövlət-büdcəsi vasitəsilə xərclənilir.

Büdcə gəlirlərinin həcm və quruluşunda baş verən dəyişikliklər digər sosial-iqtisadi göstəricilərin dinamikasına ciddi təsir göstərir. Başqa sözlə desək, büdcə gəlirlərinin optimal səviyyəsinin formalaşdırılması istehsal tutumunun genişləndirilməsinə, məşğulluq səviyyəsinin yüksəldilməsinə, istehsalın səmərəliliyinin artırılmasına zəmin yaradır (3).

Respublikamızda həyata keçirilən büdcə-vergi siyasətinin əsas məqsədi neftdən asılı olmayan büdcəni inkişaf və qeyri-neft sektorundan büdcəyə daxilolmaları artırmaq olmalıdır.

Azərbaycanın vergi xidməti sistemində biznes mühitinin təkmilləşdirilməsi, dövlət-biznes tərəfdaşlığının təşviqi və iqtisadi təhlükəsizliyin təminatı daim diqqət mərkəzində saxlanılır. Bunun nəticəsində ölkədə vergi daxilolmalarının davamlı artımı aydın müşahidə olunur, belə bir şərait isə maliyyə sabitliyini, sosial layihələrin yüksək səviyyədə icrasını və vətəndaşların rifahının daha da yaxşılaşmasını şərtləndirir (4).

Dövlət Vergi Xidmətinin səmərəli fəaliyyəti, ilk növbədə, büdcə gəlirlərinin formalaşmasında özünü qabarıq büruzə verir. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapır. Məsələn, 2023-cü il ərzində dövlət büdcəsinə vergi daxilolmaları həcminin 2022-ci illə müqayisədə 3,8 faiz artaraq 16 milyard 127 milyon manata çatması qeyd edilən fikrin təsdiqidir. 2023- cü ildə dövlət büdcəsinə 35 milyard 574,8 milyon manat vəsait daxil olmuşdur. Ötən il büdcədən 36 milyard 458,5 milyon manat vəsait xərclənmişdir. Büdcənin icrasında 883,7 milyon manatlıq kəsir yaranmışdır (5).

Son illərdə dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergi ödəyicilərinə xidmətlərin çeşidinin və biznesin fəaliyyətinə səmərəli vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi, habelə biznes və investisiya mühi-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

tinin cəlbediciliyinin artırılması vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərini təşkil edib (6).

## Ədəbiyyat

1. www.cbar.az
2. Azərbaycanın vergi jurnalı. (2023). №1 (144).
3. "Dövlət büdcəsinin tərtibi və icrası qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 may 2004-cü il tarixli Qərarı (Dəyişikliklər və əlavələrlə birlikdə).
4. Vergi Xidməti iqtisadi çağırışları çevik cavablandırır. İqtisadiyyat qəzeti 13.03.2024.
5. www.marja
6. www.taxes.gov.az

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 45-47
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 45-47
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Samiq Abbaslı**
AMEA Memarlıq və İncəsənət İnstitutu
magistrant
samiqabbas9@gmail.com
UOT 792.03

# MƏRZİYƏ DAVUDOVA SOSİALİZM REALİZMİNİN ROMANTİK AKTRİSASI KİMİ

***Açar sözlər:*** *romantik rollar aktrisası, insan azadlığı, bəşəri dəyərlər, dramaturgiya, teatr*

***Keywords:*** *actress of romantic roles, human freedom, human values, dramaturgy, teatr*

Azərbaycan teatr məktəbinin zənginləşməsində böyük xidmətləri olan aktrisalardan biri də Mərziyə Davudovadır. Onun həyat və yaradıcılığına nəzər salanda çətinliklərlə dolu ictimai-siyasi mühitdə yaradıcılıq eşqi ilə çağlayan məsum bir sənət aşiqini görürük. Aktrisa dövrün sosializm realizmi tələblərini döğrultmaqla romantik rollar aktrisası kimi də tanınır.

Mərziyə Davudova yaradıcılığının ilk illərində Cəfər Cabbarlının əsərlərində ifa etməklə yanaşı Hüsen Cavidin əsərlərində də müxtəlif obrazlar ifa etmişdir. Hüseyn Cavidin "Şeyx Sənan"da Xumar, "Topal Teymur"da Almas, "Knyaz"da Jasmen, "Siyavuş"da Südabə kimi rollar aktrisanın romantik istiqamətini üzə çıxmışdır. Teatrın yaradıcı heyəti üçün belə bacarıqlar arzuedilən idi. Mərziyə Davudovanın romantikası tamaşanın ruhuna qida verməklə, bədii çalarları qüvvətli edirdi. Bu da obrazları tamaşaçıya sevdirir, tamaşanı uğurlu edirdi. Bu mənada Xumar və Südabə obrazlarını nümunə kimi göstərə bilərik.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 45-47
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 45-47
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Xumar obrazı Mərziyə Davudovanın digər qadın obrazları kimi qadın azadlığının olmadığı bir mühitin yetirməsidir. Problem eynidir. Ancaq ölməz Hüseyn Cavid məsələni geniş planda verir. Qadın azdlığı problemi hakim dinlərin hər ikisində mövcuddur. İnsan azadlığı burada əsas məsələ kimi ön plana çıxır. Mənsub olduğu din Xumara başqa dindən olan Sənanla evliliyə qadağa qoyur. Eyni qadağa Sənan üçün də mövcuddur. Onlar saf eşqi bəzi insanların alətə çevirdiyi dini xurafatdan üstün tutaraq bu qadağanı pozurlar. Bunu ölümləri bahasına etməyə qərar verirlər. Belə bir kəskin və təsirli dramaturji xətt ancaq Hüsen Cavidə məxsus ola bilərdi. Burada əsərin möhtəşəmliyini Mərziyə Davudovanın özünəməxsus ifası daha da artırır.

Xumar zəmanəsinin  hökm etdiyi qadağalar içərisində yaşayan bir qadındır. O, məzlum və kədərlidir. Dövrün tabuları onu sıxır. Aktrisa Xumarı Sənanla görüşənə qədər ətrafındakılara qarşı küskünlük kimi deyil, daxili narazılıq kimi göstərir. Sənanla görüşü bu narazılığı şiddətləndirir. Mərziyənin ifa etdiyi Xumar artıq onu buxovlayan çürük ənənələrə qarşı etirazını bildirir. Öz istək və arzularının dalınca ölümü qarşısına alan Xumar dinini dəyişir. Eyni hərəkəti Sənan da təkrar edərək hər iki qəhrəmanın fədakar məhəbbətində insanlıq hissləri qələbə çalır.  Xumar – Mərziyə Davudova tamaşanın sonunda ölümə həyat eşqilə gedir, öz ölümü ilə həyat düşmənlərini lənətləyirdi.

Mərziyənin Xumar obrazında biz eşqin, məhəbbətin təntənəsini görürük. Xumar Sənanla birlikdə məhv olurlarsada, onlar həm şeyxlərə, həm də keşişlərə mənəvi qələbə çalırlar. Mərziyə Xumar rolunu ifa etməklə öz yaradıcılığının yeni və yüksək bir pilləsinə qalxdı.

Hüseyn Cavidin digər bir əsərinndə "Siyavuş"da Südabə rolunu oynayan Mərziyə Davudova ağılsız ehtirasın, azğın şəhvətin oduna tutulmuş Keykavus hərəminin mürəkkəb

obrazını yaratmışdır. Bu obrazda zahiri cazibə, cismi gözəllik şəklində eybəcər və müdhiş məzmun saxlanılmışdır. Mərziyə Davudova Hüseyn Cavid qələminə vurğun idi. Ona görə müəllifin fikrini olduğu kimi saxlamağa çalışırdı. O, zahirən son dərəcə gözəl və cazibədar idi. Tamaşaçı bu gözəlin qəlbində əlacı olmayan sirr, müşgül dərd olduğunu duyunca ona yazığı gəlirdi. Aktrisa formadan məzmuna, təzahürdən mahiyyətə tələsmədən asta-asta keçidlər edərək, oynadığı obrazı ifşa etməyə tələsmirdi. Tam tərsinə o, öz qəhrəmanını haqlı sayaraq onu doğrultmağa çalışırdı. Bununla da aktrisa obrazı sünilikdən, pafosdan uzaqlaşdırırdı. Mərziyə - Südabə Siyavuşla ilk görüşündə son dərəcə təmkinlə oynayırdı. Qadın ehtirasını, cinsi hisslərini yox, ancaq adi və sadə mehribanlıq duyğularını, Səyavuşa qarşı öz isti münasibətini üzə çıxarırdı. Bu görüşdə dərin kədər onun ruhuna hakim olurdu. Köhnə çağların, Suriya dağlarının həsrəti, öz qismətindən şikayət, yalqızlıq, bəxtsizlik iztirabı aktrisanın oyununda çox təbii və səmimi görünürdü.

Mərziyə Davudova yaradıcılığına dövrün bədii və sosial konseptlərinin təsiri baxımından sosializm realizmi metodu üstünlük təşkil etsə də onun romantik aktrisa kimi də uğurlu ifalarını görmək olur. Bu baxımdan Xumar və Südabə obrazlarının təhlili fikirlərimizi təsdiq edə bilər. Buninla da biz Mərziyə Davudovanın sosializm realizminin romantik aktrisası kimi daha bir əvəzedilməz istedadının şahidi oluruq.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 48-50**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 48-50**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

**Elvin Nəcəfquluzadə**
Azərbaycan Universiteti
magistrant
e07205489@gmail.com

# TURİZM SƏNAYESİ ÜÇÜN FRANÇAYZİNQİN ƏSASLARI VƏ ÜSTÜNLÜKLƏRİ

***Açar sözlər:*** *turizm, françayzinq, kommersiya, biznes, şirkət*
***Keywords:*** *toruism, franchise, commercial, business, company*

Françayzinq şirkət (françayzer) tərəfindən müəyyən bir ərazidə və ya ərazidə məhsul və xidmətlərin satışı və ya ticarəti üçün fiziki şəxsə (françayzi) verilən hüquq və ya lisenziyadır. Françayzinq iqtisadiyyatın digər sahələrində olduğu kimi turizm sektorunda da böyük əhəmiyyət kəsb edir. Françayzinq sistemi əsasında fəaliyyət göstərən müəssisələr ölkənin müsbət turizm imicinin formalaşmasında əhəmiyyətli olan amillər sırasındadır. Turizmdə françayzinq iki müstəqil tərəf arasında müqavilə əlaqəsidir (1). Françayzinq alındıqdan sonra françayzi brendin ardıcıllığını qorumaq üçün bizneslə bağlı ciddi təlimat və qaydalara əməl etməlidir. Son onilliklərdə françayzinq turizmdə məhsulların, xidmətlərin və şirkət strategiyalarının müxtəlifliyini birləşdirən məşhur, genişlənən biznes aləti kimi ortaya çıxmışdır. Bu biznes modeli öz inkişafını maliyyələşdirə bilməyən kiçik turizm müəssisələri üçün effektiv fürsətə çevrilmişdir. Bir çox ticarət formulları və biznes strategiyaları "françayzinq" termini ilə müəyyən edilir (2). Françayzinq qanuni və maliyyə cəhətdən müstəqil olan, lakin ümumi məqsədi paylaşan iki agent françayzer və françayzi arasında kommersiya əlaqəsidir. Françayzinq françayzerin françayziyə işlənmiş biznes konsepsiyasından istifadə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

etmək hüququ verən müqaviləyə əsaslanır. Bu, onlara bazarda kooperativ sistemlə birlikdə işləməyə imkan verir. Müqavilə ilə bağlanmış müxtəlif təşkilatlar arasında françayzer adlanan onlardan biri ödəniş qarşılığında françayzi adlanan digər tərəfə müəyyən fərqləndirici əlamətlərlə reallaşan brend adından və ya kommersiya düsturundan istifadə etmək hüququ verir. Bu deyilənlərdən françayzinqin aşağıdakı əsas xüsusiyyətlərini göstərmək olar: 1) Françayzinq kooperativ sistemdir 2) İki tərəf arasında münasibətlər müqavilə ilə müəyyən edilir 3) Françayzer öz françayzilərinə brend adını, kommersiya formulunu təqdim edir. Dünyada ən çox françayzinq məhz qidalanma yəni kafe və restoran sahəsindədir (3). Françayzinq ilk dəfə 1920-ci illərdə ABŞ-da mehmanxana sektorunda istifadə edilmişdir. Turizm sənayesi daxilində inkişaf etməkdə olan müəssisələrin böyümə və genişlənmə üsulu kimi françayzinqdən istifadə etməyə üstünlük vermələrinin müxtəlif səbəbləri var. Bu səbəblərə aiddir; iş prosesində səmərəliliyə və miqyasda qənaətə nail olmaq, aşağı kapital xərcləri ilə bazara sürətlə nüfuz etmək, reklamlar və promosyonlar vasitəsilə müştəriləri effektiv şəkildə yönləndirmək, xüsusi paylama şəbəkəsindən istifadə etməklə məhsul və xidmətlərin satışına nail olmaq şirkətin daxili ehtiyaclarını ödəmək və işçi qüvvəsini motivasiya etmək, françayzilərin xeyrinə kadrların hazırlanmasını və idarə olunmasını, yerli reklam və digər inzibati fəaliyyətləri təmin etmək (4). Françayzinq indiyə qədər yaradılmış ən sürətlə böyüyən biznesin genişləndirilməsi strategiyasıdır. Bir neçə il ərzində françayzinq tətbiq etməklə bir çox turizm şirkətlər böyüdülər və bir neçə müəssisədən, hətta bir müəssisədən çoxlu ofisləri olan böyük şəbəkələrə çevrildilər. Françayzinq sektorunun bütün dünyadakı bazar dəyəri 2019-cu ildə nə az nə çox 3.7 trilyon dollara çatdı. Bu isə öz növbəsində bu sektorun həcmini göstərən ən önəmli statistik göstəricidir. Biznesin genişləndirilməsi üçün heç bir

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

başqa yanaşma françayzinqin təklif etdiyi imkanlara və əhatə dairəsinə yaxınlaşmamışdır. Bu uğurun əsas hissəsi müqavilə üzrə hər iki tərəfin qarşılıqlı faydaları ilə bağlıdır (5). Azərbaycanda da françayzinq əsasında bir çox sahədə fəaliyyət göstərən müəssisələr mövcuddur. Bunların başında isə məhz mehmanxana sektorundadır. Bu Hotel şəbəkələrinə "Hilton", "Marriott", "Fairmont" və "Four Seasons" hotellərini göstərmək olar. Özəlliklə bölgələrdə turizm obyektlərinin sayının artırılması olduqca önəmlidir. İqtisadi rayonun qidalanma müəssisələri ilə təminat səviyyəsinə görə ərazi üzrə yerləşmələrində fərqlər var. Çünki ölkə ərazisindəki bütün turizm obyektlərinin 75%-i paytaxt *Bakı* şəhərindədir. Həmçinin bütün dünyada tanınan bu şirkətlərin Azərbaycanda da fəaliyyəti ölkədəki mehmanxanalarda təqdim edilən xidmətin keyfiyyətinin yüksəldilməsi, göstərilən xidmətin çeşidinin artırılması, sektorda rəqabətin artması və dünya təcrübəsindən yararlanmaq imkanının olması üçün vacibdir (6).

## Ədəbiyyat

1. Soltanova, H. "Azərbaycan Respublikasında turizm və onun inkişafı".
2. Abdullayeva, G. "Azərbaycanda ekoloji turizmin inkişafı". Turan-Sam, 15, 202.
3. Sherman, A. "Franchising and licensing".
4. Associate Professor D.Ulash "Franchising system".
5. Assistant Professor Doctor U.Yeniocak "Franchise agreement".
6. Guchlu, H.A. "Franchise agreement".

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 51-53
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 51-53
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Aidə Abdullayeva**
Qərbi Kaspi Universiteti
abdullayevaaidaa@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİT FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *audit, səmərəlilik, büdcə, analiz*
***Keywords:*** *audit, efficiency, budget, analysis*

Müasir dövrdə dövlət maliyyə nəzarət orqanlarının fəaliyyətinin mühüm istiqamətlərindən bir olan səmərəlilik auditinin əsas məqsədi dövlət vəsaitlərindən istifadənin iqtisadi səmərəsini müəyyənləşdirmək, eləcə də büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsidir. Sadəcə əsaslandırılmış və məqsədli büdcə vəsaitlərindən istifadəyə deyil, həmçinin son nəticəyə nail olmağa istiqamətlənmiş büdcə sistemlərində səmərəliliyə nəzarət daha çox vüsət alır (Auditor fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 2010). Auditinin bu tipi nəzarətdə olan obyektlərin fəaliyyətindəki pozuntuların və problemlərin aşkarlanması, dövlət funksiyalarının yerinə yetirilməsi üzrə icra hakimiyyət orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, regional büdcə vəsaitlərindən və digər dövlət resurslarından istifadə üzrə səmərəliliyin analizi və qiymətləndirilməsi, icra hakimiyyəti orqanlarının və dövlət resurslarından istifadə edənlərin fəaliyyətinin səmərəliliyinin optimallaşdırılması üzrə əsaslı təklif və tövsiyyələrin işlənib hazırlanmasında önəmli rola malikdir (Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanunu, 1994).

Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyası genişləndikcə və iqtisadiyyatda bazar münasibətləri dərinləşdikcə iqtisadi-maliyyə münasibətlər sistemində şəffaflığın

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 51-53
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 51-53
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

təmin olunması, korrupsiya və iqtisadi cinayətkarlıq əleyhinə mübarizədə audit fəaliyyətinin imkanlarından daha səmərəli istifadə olunması zərurəti artır. Müasir qloballaşan dünyada XX əsrin sonları XXI əsrin əvvəllərindən etibarən maliyyə sistemləri çox böyük risklərlə qarşılaşmağa başladı və müxtəlif cinayətkar qruplar öz cinayətlərini ört-basdır etmək, iqtisadi rıçaqlarla dövlətin və cəmiyyətin maraqlarına ziyan vurmaq, pul vəsaitlərinin leqallaşdırılmasının həyata keçirilməsi, həmçinin siyasi hakimiyyətə nail olmaq üçün maliyyə instutlarından istifadə etməyə başladılar. Bu kimi təhlükələr də iqtisadi böhranlara, siyasi və iqtisadi problemlərə səbəb olmağa başladı. Audit xidmətində məsuliyyətin artırılma müddəası nəinki auditorlara qarşı yönəldilməli, eyni zamanda auditorların peşəkar fəaliyyətlərini həyata keçirməyə maneçilik törədən, onları bilavasitə cinayətə və cəmiyyətə zidd hərəkətlərə sövq edən sifarişçilərə də yönəldilməlidirlər (Auditor Palatası haqqında əsasnamə, 1995).

Audit peşəsi hər bir vaxt səhmdarların öz şirkətlərinə nəzarəti həyata keçirdikləri önəmli bir alət rolunu oynamış, həmçinin maliyyə sisteminin nizam-intizamını və şəffaflığını qorumuşdur. Hal-hazırda fəaliyyətdə olan audit təşkilatlarının bir çoxunda apardığım araşdırma və sorğuların nəticəsində belə qərara gəldim ki, xarici ölkələrdə olduğu kimi respublikamızda da auditin səmərəliliyinin və effektivliyinin artırılması ön planda olan məsələlərdən biridir. Belə ki, şəffaflığın artırılması sosial-iqtisadi inkişaf üçün maneələr yaradan korrupsiya əleyhinə mübarizə aparmaqla yanaşı, maliyyə vəsaitlərindən effektiv istifadə olunmasına da zəmin yaradır (4). Maliyyə resurslarının səmərəli istifadə edilməsində şəfafflığın rolunun artırılması isə birinci növbədə, auditin və nəzarətin gücləndirilməsi hesabına həyata keçirilə bilər. Lakin, audit sahəsində yaşanan maliyyə saxtakarlıqları və bu kimi bir çox mənfi hallar audit fəaliyyətinin effektivliyinə mənfi təsir göstərir. Belə ki,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

son illərdə müasir dünyanın iqtisadi mənzərəsinin kəskin şəkildə dəyişməsi, iri maliyyə təşkilatlarının və qlobal şirkətlərin iflasa uğraması, maliyyə və valyuta böhranı, misli görülməmiş saxtakarlıq halları audit hesabatları istifadəçilərinin audit xidmətinə olan tələblərini artırmışdır (5).

## Ədəbiyyat


1. Auditor fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. (2010). Bakı.
2. Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanunu. (1994). Bakı.
3. Auditor Palatası haqqında əsasnamə. (1995). Bakı.
4. "Audit (Qanunvericilik və normativ sənədlər)". (2005). III cild. "İqtisadiyyat və audit" jurnalının nəşri. Bakı, 322 s.
5. "Audit (Qanunvericilik və normativ sənədlər)" IV cild "İqtisadiyyat və audit" jurnalının nəşri. (2007). Bakı, 272 s.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 54-56
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 54-56
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Aynura Aliyeva**
Azerbaijan State Agrarian University
aliyevaaynura36@gmail.com

# METHODS OF DEVELOPMENT OF ENGLISH SPEECH AT UNIVERSITIES

***Keywords:*** *speech, development, assimilation, improve, memory, linguistic*
***Açar sözlər:*** *nitq, inkişaf, assimilyasiya, təkmilləşdirmək, yaddaş, dilçilik*

1. Methods and techniques of speech development:

Dialogical and Monological Speech: Games such as Ping Pong and role-playing are used to improve dialogical skills to help students learn to respond quickly to questions and develop their ability to conduct real-time conversations. For the development of monologue speech, tasks for the description of pictures, stories and improvisational performances are used, which allows students to improve their skills in structuring thoughts and their expressive presentation.

2. Use of Information Technology:

Interactive Whiteboards: These devices allow teachers to visualize learning material and make lessons more dynamic and interesting. Interactive whiteboards contribute to better assimilation of information and the development of creativity in students, due to the ability to comment and highlight information right during the lesson.

3. Listening training and memory development:

Developing working memory and listening skills is critical, especially in national school settings where English is not the first language. The use of exercises aimed at listening comprehension helps students adapt to the peculiarities of

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 54-56
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 54-56
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

English phonetics and improve their ability to perceive and understand foreign speech.

4. Project Assignments: Universities often include project assignments to develop English language skills. Students work in groups on projects that require research, discussions, and presentations in English. This method contributes not only to the linguistic but also to the professional development of students, helping them to apply the language in practical situations.

Discussion Clubs and Debates

5. Discussion Clubs: Participating in discussion clubs and debates in English allows students to develop critical thinking and argumentation skills. This helps to improve their ability to formulate and express thoughts in English during live discussions.

Using Multimedia Resources

6. Video Lessons and Podcasts: Video lessons and podcasts in English help students develop listening comprehension and comprehension skills. This method allows students to adapt to different accents and styles of speech, as well as improves their phonetic comprehension.

Feedback and individual lessons

7. Individual Counseling: One-on-one consultations with teachers or native speakers help students to work on their weaknesses in a targeted way. A personalized approach allows you to analyze mistakes in detail and improve pronunciation and grammar.

Technological Innovation

8. Virtual and Augmented Reality: The use of virtual and augmented realities in English language teaching creates an immersive environment where students can practice the language in simulated situations close to real-life ones. It is an

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 54-56**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 54-56**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

innovative approach that makes learning interactive and engaging.

These methods and tools contribute to the creation of a favorable environment for effective English language learning, develop students' communication skills and self-confidence.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 57-60**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 57-60**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

**Qönçə Firudinli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
goncha1997@gmail.com

# TAYU VƏ ŞAMİSEN BUNRAKU KUKLA TEATRININ AYRILMAZ HİSSƏSİ KİMİ

***Açar sözlər:*** *Yaponiya, Bunraku, teatr, tayu, şamisen*
***Keywords:*** *Japan, Bunraku, theatre, tayu, shamisen*

Yapon sənət növlərinin hər biri müəyyən topluya - kitaba əsaslanır. Bunlardan Noo teatrının pyeslər toplusu "Noohon", Kabuki teatrının "Maruhon" pyeslər toplusunun adlarını qeyd edə bilərik. Bunraku teatrının da özünəməxsus pyeslər toplusu var ki, bu "Yukahon" adlanır. "Yuka"-"döşəmə", "hon" isə "kitab" sözlərinin birləşməsindən yaranıb, yaponacadan tərcümədə "döşəmə kitabı" deməkdir. Çünki tayular səhnəyə çıxarkən "yuka"-da əyləşərək bu kitabdan pyesləri səsləndirirlər. "Yukahon"-un önəmli tərəflərindən biri də nəsildən-nəsilə ötürülməsi ilə bağlıdır.

Bunrakuda hər bir nağılçı öz təcrübəsinə əsaslanaraq özünün nağılçılıq texnikasını yaratmalı və Yukahonda da hər nəsil öz oyun texnikasını qeyd etməlidir. Burada yazılmış hər bir pyesin daxilində tamaşaçılara çatdırılmalı olan hisslərin, emosiyaların kənarında tayular tərəfindən xüsusi qeydlər aparılır ki, mətni oxuyan çanter, həmin emosiya ilə hansı formada empatiya quracağını anlayır və onun tempini aydınlaşdırır. Daha asan anlaşılsın deyə, bu qeydləri musiqi əsərində not vərəqinin ən başlanğıcında qeyd olunmuş "andante", "allegro", yaxud "vivace" ifadələri ilə qarşılaşdıra bilərik.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 57-60**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 57-60**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

Bunrakuda kuklaçılar üçün nəzərdə tutulan yaş mərhələləri olduğu kimi nağılçılıq sənətində də tayular üçün yaş mərhələləri vardır. Belə ki, tayular 50 yaşına çatan zaman artıq yetkinləşmiş səsə sahib olur, 60 yaşında isə bu sənət üçün lazımi bacarıqlara yiyələnmiş, 70 yaşına çatmış tayular isə ahıl tayular hesab olunur. Bunrakuda "solmuş sənət" adlandırılan bir ifadə də var ki, bu çanterin tayu olaraq çatdığı ən yüksək zirvə hesab olunur (1).

Tayular nağılçılığın - oxuma tərzinin Zen Buddizmi ilə əlaqəli olduğunu vurğulayırlar. Bunun səbəbi onların oxuyarkən, qarın nahiyəsindən ifası ilə əlaqəlidir. Tayular buna "qarından danışmaq" deyirlər. Tayulara görə, nağılçı gərək özünü tamamilə tamaşaya, kuklanın hərəkətlərinə həsr etsin, çünki sadəcə o zaman kukla öz-özünə və təbii hərəkət edəcək. Bu səbəbdəndir ki, tayular oxuyarkən qarınlarını möhkəm bağlayırlar. Bunu da ona əsaslandırırlar ki, oxuyarkən bütün konsentrasiya qarında cəmləşməli, sözlər "hara"-dan – qarından gəlməlidir (2).

Əksər səhnələrdə bir tayu və bir şamisen ifaçısı tamaşaçı zalına - sol tərəfə doğru uzanan köməkçi səhnədə əyləşirlər. Tipik olaraq, hər bir cütlük (tayu və şamisen-hiki) bir periodik olaraq, tamaşa zamanı hər hansı bir səhnəni məsələn, məişət pyesindən bir hissəni ifa edir. Hər bir səhnəciyə ayrılmış zaman isə bəzən bir neçə dəqiqədən iki saata qədər davam edə bilər. Bir cütlü tərəfindən ifa olunan səhnəcik bitdikdən onların əyləşdikləri yuka fırlanır və biz həmin yukada əyləşən digər cütlüyü görürük (3).

Tayu, hər bir baş rol personajı üçün səsinin tembrini, tempini dəyişir və personajın məqsədini həm təbii nitqi ilə, həm də metaforik şəkildə ifa etməyə çalışır. Personajların sözləri adətən gündəlik danışıq dili ("kotoba") vasitəsilə səsləndirilir və təsviri hissələr oxunur ki bunlara da "ci" deyilir. Həmçinin səsləndirmə zamanı aralıq qiraət üsulu "iro" olaraq

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 57-60
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 57-60
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

bilinən metoddan da istifadə olunur. Tayu mətni ifa edərkən siması çoxifadəli olur, onun mimikaları ifa etdiyi emosiyalara uyğun olaraq dəyişir, uzun hıçqırıqlar və ya gülüşlər zamanı onun nitqi metaforik şəkildə şişirdilmiş olur. Bəzi tamaşalarda isə, məsələn, "Yoşitsune"-dən olan səyahət səhnəsində bir neçə tayu və şamisen-hiki görmək mümkündür. Səhnədə bir neçə tayu ifa edərkən, onlar rolları birləşdirir, yaxud bölüşdürə bilirlər ki, bu metod da "kakeai" olaraq bilinir. Əsas personajların hər birinə bənzərsiz bir səs və daha fərqli bir şəxsiyyət olma imkanı yaradan bu metod güman edilir ki, Kabukidən ilhamlanaraq yaradılmışdır (4).

Gidayu şamisen (yaxud şamisen) kukla teatrında istifadə olunan və öz növü arasında ən böyüyü sayılan üçüncü instrumentdən biridir. Onun üç simi hörülmüş ipəkdən hazırlanır və güclü, kəskin səslər çıxarmaq üçün böyük fil dişindən hazırlanmış mizrabdan istifadə olunur. Şamisendə ifa olunan musiqi parçaları, əsasən, tayu tərəfindən oxunan hissələri şərh edən akkordlar və tək notlarla müəyyən edilmiş ifadələrdən ibarətdir. Şamisen musiqisi əhval-ruhiyyə və ya ab-hava yaradır, nağılçının ifadələrini yüksəldir və azaldır, kuklaların hərəkətlərini tənzimləyir və vurğulayır. Çanter və şamisen ifaçısı arasında olan partnyorluq bəzən uzun müddətli olur. Onlar uzun müddət birlikdə ifa etdikləri üçün asanlıqla bir-birinin hisslərini anlaya bilirlər. Ancaq tayular ifa edərkən şamisenin musiqisini izləmirlər. Şamisen ifaçısı öz notlarını ifa edərkən tayu da öz mətnini səsləndirir və professional ifaçılar bu şəkildə bir-biri ilə sinxron içərisində olurlar.

Haqqında bəhs olunan tayu və şamisen-hiki Yapon ənənəvi sənət növlərinin əsas təməllərindəndirlər. Onlar hələ də öz varlıqlarını bir sənət forması kimi davam etdirir, müasir Yapon incəsənətinə müəyyən mənada böyük təsir göstərir və yaponların gündəlik yaşamlarında, onların xüsusi bayramlarında, ənənəvi mərasim və rituallarında öz yerini

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

tapır. Bu səbəblə də, onların hələ də yaşlı nəsillərdən gənc nəsillərə ötürülməsinə şərait yaradılır, gənclər tərəfindən öyrənilir və tədqiq olunur (5).

## Ədəbiyyat


1. "Bunraku: Japan's unique puppet theatre". (1964). Shuzaburo Hironaga.
2. "The Voices and Hands of Bunraku". (1978). Barbara Adachi, Donald Kneenin tərcüməsində.
3. "The Tension of Modern Bunraku". (2004). Theodora Skipitares.
4. The Dolls of Bunraku on JSTOR.
5. A Brief Introduction to the History of Bunraku (puppetry.info)

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
orxanrzazade@mail.ru

## ATLANTİDANIN MƏHVİNƏ SƏBƏB NƏ OLMUŞDUR?

***Açar sözlər:*** *Atlantida, okean, Platon, Yer kürəsi*
***Keywords:*** *Atlantis, ocean, Plateau, Earth*

Atlantidanın məhvinə səbəb nə olmuşdur? Bu yaxınlarda televiziya kanallarının birində Atlantida haqqında maraqlı veriliş gedirdi. Verilişdə ən qədim sivilizasiyaların mövcudluğu və məhv olma səbəbləri izah edilirdi. Şifahi və yazılı mənbələr təhlil edilir, elmi yolla araşdırılırdı. Mənim üçün də çox maraqlı idi ki, görəsən Atlantida harada mövcud olmuşdur? Suala düzgün cavab vermək çətin olduğu üçün onu fikrimdən çıxarmağa çalışdım, lakin özümlə bacarmadım. Ona görə də Atlantida haqqında mənə məlum olanları qeyd etmək qərarına gəldim. Məsələnin çətinliyi onunla əlaqədardır ki, yazılı məlumatlar çox azdır. Alimlərin fikir və mülahizələri bir-biri ilə ziddiyyət təşkil edir. Həqiqəti əks etdirmir. Atlantida bəşəriyyətin ən qaranlıq səhifələrindəndir.

Atlantida haqqında hər hansı fikir söyləmək üçün aşağıdakı suallara düzgün cavab tapılmalıdır:

1. Ümumiyyətlə, Atlantida mövcud olmuşdurmu?
2. Coğrafi mövqeyi necə idi?
3. Ərazisi hansı böyüklükdə olmuşdur?
4. Onun üzərində yaşamış canlı orqanizmlərə hazırda rast gəlmək mümkündürmü?

5. Nəhayət, Atlantida necə və nəyin nəticəsində məhv olmuşdur?

Dərsliklərdə və elmi kitablarda Atlantida haqqında çox az məlumatlara rast gəlmək mümkündür. Hörmətli alimlərin fikir və mülahizələri isə bir-birindən tamamilə fərqlənir. Oxuculara aydın olması üçün müxtəlif mülahizələrə öz düşüncələrinə əsasən izah etməyə çalışacağam.

Elmi kitablarda qeyd edilmişdir ki, Atlantida 10-12 min il əvvəl Atlantik okeanında mövcud olmuşdur. Cəbəlüttariq boğazından qərbdə yerləşən adanın üzərində Atlantlar tayfası yaşamışdır. Mülahizələrə əsasən buranın əhalisi qüdrətli və mədəni, torpaqları isə məhsuldar olmuşdur. Qəflətən baş vermiş zəlzələ nəticəsində ada tamamilə su altında qalmışdır. Bütün bunlar sübut olunmamış fikirlərdir. Atlantidanın həqiqətən mövcud olub-olmaması məsələsi elmi yolla hələ də həll edilməmişdir. Yeganə məlumat Platonun (Əflatunun) özündən qabaqkı şifahi məlumata əsaslanaraq yazdığı “Timey” və “Kritey” dialoqlarıdır. Kitablarda qeyd edilmişdir ki, deyilənlərə görə Atlantida 9000 il əvvəl dəhşətli bir fəlakət nəticəsində bir günün içində dağılaraq məhv olmuşdur. Bu məlumatlardan belə çıxır ki, Atlantida bizim eradan əvvəl 9500-cü ilə qədər mövcud olmuş, təxminən bu tarixdə də məhv olmuşdur. Bəzi tədqiqatçılar Platonun fikirlərini həqiqət hesab etmirlər. Onu Platonun təfəkkürünün məhsulu kimi qəbul edirlər. Yer kürəsinin quruluşu həmin dövrlərdə tam dəqiqliyi ilə elm adamlarına məlum ola bilməzdi. Ancaq Platonun yazdıqlarına əsasən belə bir fikir söyləmək mümkündür ki, Amerika qitəsinin mövcudluğu məlum imiş. Filosof Atlantida haqqında qeydlərini belə yekunlaşdırır:

“Dəhşətli zəlzələ və subasma nəticəsində bizim ordumuz bir gün və bir gecə ərzində torpağa batdı. Atlantida adası da dənizin dərinliklərində gözdən itdi. Bu səbəbdən həmin dəniz gəmiçilik üçün yararsızdır. Batmış adanın əvəzində qalan bərkimiş çirkab gəmilərin hərəkətinə mane olur.”

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Platona görə Atlantidanın sahəsi Asiya qitəsinin sahəsindən böyük olmuşdur. Adada yaşayanlar dəniz və zəlzələlər tanrısı Poseydonun soyundan gələn kralların qurduğu ittifaq tərəfindən idarə olunurdu. Həmçinin adada ayrı-ayrı krallar tərəfindən idarə olunan şəhər dövlətlər də var idi. Ancaq bunların içində ən möhtəşəmi paytaxt şəhəri idi.

Atlantların yaşadıqları ərazini Platon öz əsərində dəqiq məkan göstərməyib. O, yalnız indiki Cəbəllütariq boğazının ətrafını nişan verməklə kifayətlənib. Bəzi alimlərin dediyinə görə Atlantida Atlantik okeanından Aralıq dənizinə qədər paralel istiqamətdə uzanan geniş əraziyə malik olmuşdur. Bəzi araşdırmaçılar Atlantik okeanında yerləşən Azor və Kanar adalarının Atlantidanın qalıqları olduqlarını qeyd edirlər. Hətta dünyanın hər yerində Atlantidanın qalıqlarının olduğunu iddia edənlər də var. Antarktida, İrlandiya, İspaniya, Cənubi Çin dənizi, Amerika qitəsi, And dağları, hətta Dominikan Respublikasında yerləşən bir gölü də bu əraziyə aid edilir. 1882-ci ildə Donelli "Tufandan əvvəlki dünya Atlantida" adlı kitabını nəşr etdirir. Donelliyə görə Atlantida yer üzündəki cənnət, yunan tanrılarının vətəni imiş. Donelli öz kitabında Atlantidanın Azor adalarının yaxınlığında yerləşdiyini qeyd etmişdir. Daha geniş yayılmış fərziyyəyə görə Santorini adasında vulkan püskürməsi nəticəsində Atlantida məhv olmuşdur. Bir çox müasir fərziyyəyə görə mütəxəssislər əfsanə və əsatirlərə istinad edərək, Atlantidanın Mərmərə dənizi sahillərində yerləşdiyini qeyd edirlər.

1553-cü ildə Pedro Syes de Leonanin adlı yazıçı "Perunun xronikası" əsərini çap etdirmişdir. Əsərdə hinduların tarixindən danışılır. Əsərdə yazıldığına görə "Ağ adamlar" Peru ərazisini İspanlardan da əvvəl keçmiş və İnqlərdən əvvəl buranı idarə etmişlər. Burada ən böyük çayın adı Vinyakedir (Vinaque). Bu çayın ətrafında uzun əsrlər boyu mövcud olan çoxlu tikililər vardır. Hindulardan bu haqda soruşduqda onlar saqqallı adamların İnqlərə qədər bu yaşayış məntəqələrini tikdiklərini qeyd edirlər.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Bu tikililər digər İnqlərin tikililərindən çox fərqlənirdi. Çünki, onların forması kvadrat şəklində idi. İnqlərin düzəltdikləri tikililər isə nazik və uzun formalı idi. Yazıçının fikrincə, əvvəllər bura özgə insanlar gəlmiş və onlar şüurca inkişaf etmiş olublar ki, bizim onlar haqqında dəqiq məlumatımız yoxdur.

Bu əsərdən sonra bir çox tarixçilər özgə adamlarla maraqlanmağa başladılar. Atlantların Cənubi Amerikada yaşadıqları haqqında bir çox hipotezlər ABŞ yazıçısı Cim Atlenin “Atlantida. Andlar həlli” adlı əsərində ətraflı göstərilir.

1624-cü ildə ingilis alimi və siyasətçisi Fresis Bekon Berulamski “Yeni Atlantida” əsərində Atlantidanın Braziliya ərazisinin ətrafında olması haqqında bir sıra məlumatlar vermişdir. Əsərin nəşr edilməsindən bir müddət sonra fransa kartoqrafı Nikola Sanson tərəfindən Cənubi Amerikanın da daxil olduğu xəritə tərtib edilmişdi. Bu xəritədə Braziliyanın göstərildiyi ərazi Platon qeyd etdiyi Poseydonun ovlaqlarının əyaləti ilə üst-üstə düşürdü. Bu atlasa bənzəyən xəritə 1762-ci ildə Robert Boqudi tərəfindən də tərtib edilmişdir.

Braziliyanın Atlantidanın ərazisində yerləşməsi haqqında fərziyyəni polkovnik rütbəsini qazanan məşhur ingilis alimi və səyyahı Persi Harrison Tosett (1867-1925) dəstəkləyirdi. Rəvayətə görə, portuqal səyyahları 1753-cü ildə Baiya əyalətində məlum olmayan “Ölü şəhər” statusuna malik olan şəhərdə qızıllar axtarışına çıxmışlar. Persi Harrison öz planını “L”, yəni Matu-Qrosu əyalətində yerləşən naməlum şəhər adlandırırdı. Persi Atlantidanın Braziliya ərazisində mövcud olmasını qara bazalt heykəlciyi ilə əlaqələndirirdi. Onun sözlərinə görə bu heykəlciyin nədən yarandığını Britaniya muzeyində çalışan ekspertlər izah edə bilməmişlər. Həmçinin, Persi Braziliyanın Baiya ştatında yerləşən Qonqoçi çayının ətrafında yerləşən rayonlarında bu sivilizasiyaya aid bir sıra qalıqlar tapmışdır. 1925-ci ildə Persi heyəti Sinqo çayı ətrafında ekspedisiya aparmışdır. Lakin onlar bu ekspedisiyadan naməlum səbəbdən geri qayıtmayıblar.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Atlantidanı Bermud üçbucağı ilə əlaqələndirən tədqiqatçılar da vardır. Bermud üçbucağı Atlantik okeanında Florida, Bermud adaları və Puerto-Rikonu birləşdirən şərti xətlərin əhatə etdiyi üçbucaq ərazidir. Bermud üçbucağı burada çoxlu itmiş obyektə görə sirli yer və anomal zona sayılır. Bu sahə gəmilərin, qayıqların və təyyarələrin itdiyi yüksək qəza bölgəsi kimi qeyd edilib. Adı çəkilən yer haqda mövcud olan əfsanələrin müasir tarixi 5 donanma təyyarəsinin böyük fırtına ilə qarşılaşaraq yoxa çıxması ilə başlanıb. Əksər insanlar tərəfindən Bermud üçbucağı sadəcə kimlərsə tərəfindən məşhurlaşdırılmış və qeyri-adi bölgəyə çevrilmiş bir əfsanə kimi qəbul olunub. Son iddialara görə isə bütün bu sirli hadisələr əslində sadə bir təbii qaz kütləsinin təsirindən baş verirmişdir. Yerin altından çıxan təbii qazlar sudan yüngül olduqları üçün səthə doğru yüksəlirlər. Həmin anda suyun dibindən səthə qədər sıxlıq azalır. Həmin vaxt ondan keçən nə varsa dərin bir quyuya düşən kimi sürətlə okeanın dibinə düşür.

Bermud üçbucağının da qədim Atlantida ilə hansısa əlaqəsi olması barədə müxtəlif fikirlər mövcuddur. Məsələ burasındadır ki, həmin ərazidə suyun dibində tədqiqatlar aparılmışdır. Məlum olmuşdur ki, suyun dibində çox iri, nəhəng daşlar vardır. Həmin daşlar elə bil ki, insan əli ilə sıra ilə düzülmüşdür. Daşların kimyəvi quruluşu oradakı süxurların tərkibindən tamamilə fərqlənir. Bütün bunlar isə yaxın ərazilərdə nə vaxtsa yüksək inkişaf etmiş sivilizasiyanın olmasını sübut edir.

Maraqlı mülahizələrdən biri də Atlantidanın üçüncü Reyxlə əlaqələndirilməsidir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Üçüncü Reyx də dövlətin axtarışında olmuşdur. Hətta bu araşdırmaların tarixi Hitler Almaniyasından əvvəlki illərə, 1900-cü illərə gedib çıxır. Belə ki, Tuli adında gizli bir cəmiyyət ari xalqının varlığını araşdırmaq və onların Atlantida ilə hər hansı bir əlaqəsinin olduğunu sübuta yetirmək üçün axtarışa başlayırlar. Onlar dünyanın bir çox yerində axtarışlar aparsalar da, Atlantidanın daha çox Qrelandiya və İslandiya adaları arasında

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

yerləşdiyinə inanırdılar. Hətta Adolf Hitler İkinci Dünya müharibəsi illərində Hərbi Hava Qüvvələrini də bu işə səfərbər etmişdi. Bununla belə tutarlı faktlar əldə olunmayıb. Ümumiyyətlə, Almaniyada Atlantida ilə əlaqədar olan çox müxtəlif fikirlər, mülahizələr və araşdırmalar mövcuddur. Onların izahı isə ayrı mövzudur.

Bəşər tarixinin həm qədim, həm də müasir dövründə bütün elm adamları Atlantidanın müvcudluğuna maraq göstərmiş, fikirlər söyləmişlər. Ancaq heç bir fikir və mülahizələr həqiqəti əks etdirməmişdir. Çünki, hamıya elə gəlir ki, Atlantida heç bir iz qoymadan yox olmuşdur. Lakin, burada da dərk edilməsi çətin olan bir məsələ var. Kainatda heç bir iz qoymadan məhv olma mümkün deyildir. Bunlar mənim öz fikrimdir. Atlantida ilə əlaqədar olan elmi sübutlar var və hamısı mənə tamamilə aydındır. Əslində, onların hamısını izah etmək qeyri-mümkündür.

Müasir dövrdə də Atlantidanı Platonun uydurması kimi mülahizələrə rast gəlmək mümkündür. Hesab edirlər ki, Platon bu uydurması ilə gələcək nəsillərə öz həmvətənləri haqqında mifik qəhrəmanlıq tarixi hədiyyə etmək istəyib. Ancaq, Platonun Atlantida barədə məlumatlarına ciddi yanaşaraq elmi araşdırmalar aparanlar da çoxdur. Onların sırasında amerikalı konqresmen İqnatius Loyola Donelli xüsusi yer tutur. Atlantida ilə bağlı tarixi materialları araşdıraraq 1882-ci ildə “Atlantida-subasma öncəsi dünya” əsərini qələmə alan ABŞ atlantoloqu və yazıçısı İqnatius Donelli hətta “atlantologiyanın atası” kimi qəbul edilirdi. Bu mövzuda apardığı araşdırmalardan sonra İqnatius Donelli Platonun rellıqda mövcud olmuş nəhəng adanı təsvir etməsi haqqında mülahizə irəli sürmüşdü. O hesab edirdi ki, Atlantida ilk və qədim bəşəri sivilizasiyanın məkanı olub. Çünki, hindu, skandinav və s. dünya xalqlarının mifologiyalarında qalan allahların hamısı Atlantida vətəndaşları sayılır. Böyük ehtimalla Atlantidanın ən qədim koloniyası Misir olub. Bu səbəbdən də misir sivilizasiyasını Atlantida sivilizasiyasının təzahürü saymaq

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

olar. Bürünc əsri Avropaya məhz Atlantidadan ayaq açıb və ilk dəfə dəmirdən atlantlar istifadə ediblər. Və Atlantida dəhşətli fəlakət nəticəsində məhv olub. Adanın bütün əhalisi okean sularının altında qalıb.

Bütün yuxarıda qeyd etdiklərimdən aydın olur ki, Atlantida ilə bağlı olan fikir və mülahizələr bir-birindən tamamilə fərqlənir. Eyni zamanda məlumatlar o qədər çoxdur ki, onların hamısını izah etmək mümkün deyildir.

Atlantida ilə əlaqədar olan fikirlər söyləmək üçün Yerin bir planet kimi formalaşması, onun üzərində materik və okeanların yaranması ardıcıllığı diqqətlə öyrənilməlidir. Üzərində yaşadığımız Yer kürəsi qaz-toz dumanlığından yaranaraq müasir dövrümüzə qədər çox mürəkkəb inkişaf yolu keçmişdir. Onun üzərində materiklər, okeanlar relyef formalarının yaranması çox ciddi qanunauyğunluğun təsiri altında mümkün olmuşdur. Bu qanunauyğunluqlar yalnız dərk edildikdə Atlantida haqqında dəqiq və düzgün fikirlər söyləmək mümkündür. Qeyd etməliyəm ki, Atlantida ilə bağlı olan fikir və mülahizələrin həqiqətə uyğun olanları və olmayanları mənə tamamilə aydındır. Eyni zamanda Atlantidanın necə, harada yaranması və məhv olma səbəblərini qeyd etmək mümkündür. Bunun üçün Yer üzərində ilk quru və su sahəsinin, materiklərin, adaların yaranması ardıcıllığına nəzər salmalıyıq. Atlantida faciəsinin bizim dövrümüzdə baş verib-verməyəcəyini anlamaq üçün bu vacib məsələdir.

Məlumdur ki, üzərində yaşadığımız Yer kürəsinin inkişafı iki mərhələyə ayrılır: planetar və geoloji. Planetar məsələdə Yer qaz-toz dumanlığından yaranmış, planet kimi formalaşmış, nüvəsi və mantiyasının tərkibinə ağır elementlər toplanmışdır. Yer kürə formasını aldıqca onun Günəş və öz oxu ətrafında hərəkəti başlayır. Bu zaman mərkəzdənqaçma və mərkəzəqaçma qüvvələri qarşılıqlı təsir göstərir. Bunun nəticəsində ağır elementlər, dəmir, mis, nikel, plutonium, uran və başqaları nüvədə toplanır. Nisbətən

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

yüngül elementlər alüminium, maqnezium, silisium-oksid isə üst qatlarda, əsasən mantiyada toplanır.

Mantiya və nüvədə sıxılma prosesləri baş vermişdir. Nəticədə burada temperatur artmış, təzyiq yüksəlmişdir. Fiziki-kimyəvi proseslər güclənmişdir. Yerin səthində kütləvi şəkildə lava püskürmələri baş vermişdir. Eyni vaxtda Ayda da buna bənzər püskürmələr baş vermişdir. Ona görə də bu mərhələni Yerin planetar inkişafının "Ay erası" adlandırırlar. Lava Yer səthində soyuyaraq bazalt qatın, bu isə öz növbəsində nazik Yer qabığını əmələ gətirmişdir. Yer qabığının digər tərkib hissələri olan çökmə və qranit süxurları həmin vaxtlarda hələ formalaşmamışdı. Yer qabığının və mantiyanın qalınlığı planetin müxtəlif yerlərində müxtəlif ölçüdə yaranmışdı. Ağır birləşmələrin toplandığı ərazilərdə nəhəng çökəkliklər, yüngül birləşmələrin toplandığı yerlərdə isə yüksək çıxıntılar yaranmışdır.

Vaxt keçdikcə lava püskürmələrinin həcmi azalmışdır. Bu da havanın temperaturunun aşağı düşməsinə səbəb olmuşdur. Havadakı su buxarının kondensasiyası nəticəsində buludlar yaranmışdır. Bu da leysan yağışların yağmasına səbəb olmuşdur. Yer səthinə düşən sular çökək sahələri örtərək ilkin okeanı – Pantalası yaratmışdır. Beləliklə Dünya okeanının yaranması Yerin planetar inkişafının sonu, geoloji inkişafın başlanğıcıdır.

Geoloji mərhələnin başlanğıcında ilk quru səthinin bünövrəsi olan platformalar yarandı. Bunun ardınca vulkanizm proseslərinin intensiv baş verdiyi, qeyri sabit, mütəhərrik geosinklinallar (qarışıqlıqlar) yarandı. Yer qabığının yarandığı ilk gündən bu günə qədər baş verən bütün proseslər platforma və geo-sinklinalların qarşılıqlı təsirinin nəticəsidir. Atlantida da məhz həmin təsirlərin nəticəsində məhv olmuşdur. Hazırda müxtəlif nəzəriyyələrə görə Yer kürəsində mövcud olan litosfer tavaları aşağıdakılardır:

Sakit okean, Avrasiya, Hind-Avstraliya, Afrika, Şimali Amerika, Cənubi Amerika, Antarktida. Bunlardan Sakit okean

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

yalnız okean mənşəlidir. Çoxlu kiçik litosfer tavaları da mövcuddur. Məsələn, Kokos, Naska, Karib və başqaları Litosfer tavaları üfüqi olaraq həmişə hərəkət edirlər. Bu da həm Yerin daxilində, həm də xaricində baş verən proseslərə təsir göstərir. Materik və okeanların müasir coğrafi mövqeyi 100 mln. illər ərzində litosfer tavalarının üfüqi yerdəyişməsinin nəticəsidir. Xəritəyə baxdıqda litosfer tavalarının hərəkətlərinin nəticəsini materiklərin kənar xətlərinə əsasən müəyyən etmək mümkündür. Buna əsasən söyləmək mümkündür ki, Atlantida nə vaxtsa Cənubi Amerikanın qərb hissəsindən ayrılmış böyük torpaq sahəsi olmuşdur. Həmin torpaq sahəsi materik və ya qitə ola bilməzdi. Yalnız böyük ada formasında olması mümkün idi.

Litosfer tavalarının hərəkəti ya onların toqquşması, ya da aralanması ilə nəticələnir. Əgər Yer kürəsinin bir hissəsində litosfer tavalarının aralanması baş verirsə, digər hissədə isə toqquşma baş verir.

Məlumdur ki, Arxey və Proterozoy eralarında əvvəlcə vahid quru sahəsi Pangeya yaranmışdır. Bu zaman bütün materiklər bir-biri ilə birləşmiş olmuşdur. Pangeyanı hər tərəfdən Dünya okeanı – Pantalas əhatə etmişdir. Sonra vahid quru sahəsi iki materik tipli litosfer tavalarına ayrılmışdır. Lavrasiyanın tərkibinə müasir Şimalı Amerika və Avrasiya materikləri daxil idi. Hondvanın tərkibinə isə Cənub yarımkürəsində yerləşən quru sahələri daxil idi. Həmçinin Ərəbistan və Hindistan yarımadları Hondvananın tərkibinə aid edilirdi. Lavrasiya Hondvana materikləri arasındakı ensiz su sahəsi Tetis okeanı adlandırılmışdır. Mezozoy erasının Yura dövründə, təqribən 140-160 mln. il bundan əvvəl Lavrasiya və Hondvana parçalanmağa başlamışdır. Nəticədə müasir materiklər yaranmışdır. Sakit və Şimal Buzlu okeanın sahələri getdikcə kiçilir. Atlantik okeanı isə fasiləsiz olaraq genişlənir.

Kaynozoy erasında Afrika, Hindistan və Ərəbistan tavaları şimala hərəkət edərək Avrasiya ilə toqquşmuşlar. Bu da Tetis okeanının qapanması ilə nəticələnmişdir. Xəzər və Aral dəniz-

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

ləri gölə, Azov, Qara, Aralıq dənizləri daxili dənizlərə çevrilmişdir.

Bütün bunları ona görə qeyd etdim ki, Yer kürəsi yarandığı ilk gündən müasir dövrə qədər çox mürəkkəb inkişaf yolu keçmişdir. Burada qaranlıq qalan məsələlər də çoxdur. Məlum olan proseslərin hamısını da izah etmək mümkün deyildir. Lakin, qeyd etdiklərim Atlantidanın ərazisi, yaranması və məhv olması haqqında düzgün məlumatlar verməyə əsas verir. Eyni zamanda müasir dövrdə Atlantida faciəsinin təkrar olunmasını dərk etmək üçün çox vacibdir.

Nəhayət, Atlantida ilə əlaqədar, mənə tamamilə aydın olan məsələlər aşağıdakılardır:

1. Platonun Atlantida ilə əlaqədar olan mülahizələrinin həqiqətə uyğun olanları vardır və bunlardır: Atlantida həqiqətən Atlantik okeanında yerləşirdi. Faciə zamanı xilas olmuş insanlar olmuşdur. Həmin insanların şifahi məlumatlarını Platon öz dialoqlarında qeyd etmişdir. Atlantida da yaşayan insanlar mədəni, qüdrətli və çox savadlı olmuşlar.

Platonun həqiqətə uyğun olmayan mülahizələri də vardır: Atlantida Asiya qitəsi böyüklükdə mövcud ola bilməzdi. Çünki, Yer kürəsinin ən qədim dövrdən başlayaraq müasir dövrə və gələcəyə doğru inkişafında çox ciddi qanunauyğunluq Platona məlum olmamışdır. Bunun izahı isə ayrı mövzudur. Nəhayət, Atlantida Cəbəlüttarinq boğazının yaxınlığında yerləşə bilməzdi. Ən azı 700-800 km uzaqda, cənub-qərbdə yerləşirdi. Başqa, həqiqətə uyğun olamayan mülahizələr də vardır.

2. Platondan müasir dövrə qədər bütün tədqiqatçılar Atlantidanın yerləşdiyi ərazi haqqında düzgün məlumat verməmişlər. Bu da yazılı məlumatların olmaması ilə əlaqədardır. Mülahizələrin hamısında Atlantidanın Afrikanın qərbində, Aralıq dənizinə yaxın yerləşdiyi bildirilir. Hətta qitə və ya materik olduğu fikirlərinə rast gəlmək mümkündür. Bu fikirlərin hamısı həqiqətdən çox uzaqdır.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

3. Mülahizələrin əksəriyyətində Atlantların Afrikaya, Aralıq dənizi ətrafına tez-tez gəlib getdikləri bildirilir. Əslində bu da mümkün deyildir. Çünki, onların istifadə etdikləri qayıqlar qamışdan düzəldilmişdir. Həmin qayıqlarla uzaq məsafələrə üzmək mümkün deyildir. Atlantlar daha çox Peru və Boliviya dövlətlərinin ərazisində yaşayan insanlarla əlaqə saxlamışlar.

4. 1624-cü ildə ingilis alimi Frensis Bekon Berulamski "Yeni Atlantida" əsərində Atlantların Braziliya ətrafında yaşamaları haqqında məlumat vermişdi. 1762-ci ildə Robert Boqudi xəritə tərtib etmişdi. Həmin xəritədə Atlantidanın Braziliyanın ərazisində yerləşməsi haqqında məlumatlar vardır. Bütün bu məlumatların hamısı həqiqətdən çox uzaqdır.

5. 1882-ci ildə ABŞ atlantoloqu və yazıçısı İqnatus Dokelli "atlantoloqların atası" hesab edilirdi. O, öz əsərlərində qeyd etmişdir ki, Atlantida ilk və ən qədim bəşəri sivilizasiyanın məkanı olub. Çünki, hindu, skandinav və s. xalqların mifologiyalarında allahların hamısı Atlantida vətəndaşı sayılır.

Yazıçının fikrincə Atlantidanın ən qədim koloniyası Misir olub. Bu səbəbdən də Misir sivilizasiyasını Atlantida sivilizasiyasının təzahürü saymaq olar. Bürünc əsri Avropaya Atlantidadan ayaq açıb. İlk dəfə dəmirdən Atlantların istifadə etdikləri qeyd edilib.

Qısaca olaraq onu qeyd etmək istəyirəm ki, bütün bunlar reallıqdan uzaqdır. İzahı isə ayrı mövzudur. Dünya sivilizasiyasının vətəni Atlantida deyil. Misir sivilizasiyası Atlantida sivilizasiyasının təzahürü ola bilməz. Bürünc və dəmir ilk dəfə Avropaya başqa ərazilərdən gətirilmişdir. Bütün bunların elmi yolla sübutlarının izahı ayrı mövzudur.

Elə isə belə bir sual meydana çıxır. Dünyanın bütün tədqiqatçılarının Atlantida ilə əlaqədar mülahizələri reallıqdan çox uzaqdır. Onda Atlantida harada və nə vaxt mövcud olmuşdur, məhv olmasına səbəb nədir?

DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Sualın cavabı elmi yolla geniş izahat tələb edir. Öz düşüncələrimin və fikirlərimin düzgünlüyünə inandığım üçün qısa izah etməyə çalışacağam.

Məlumdur ki, Yer kürəsinin ilk quru sahəsi Pangeya adlandırılmışdır. İlk vaxtlar Yer öz oxu ətrafında və Günəş ətrafında sürətlə fırlanırdı. Mərkəzdənqaçma və başqa qüvvələrinin təsiri nəticəsində materiklər Pangeyadan ayrılmağa başlamışdır. Cənubi Amerikanın şərq sahillərinə xəritədə fikir verdikdə Afrikanın qərb sahilləri ilə üst-üstə düşdüyünü müəyyən etmək mümkündür. Doğrudan da, Cənubi Amerika materiki Afrikadan ayrılmışdır. Cənubi Amerikanın qərb sahillərinə diqqətlə fikir verdikdə, nə vaxtsa buradan da böyük torpaq sahəsinin ayrıldığını hiss etmək mümkündür.

Həqiqətən Atlantida Cənubi Amerikanın qərb sahillərindən ayrılmışdır. Bu o vaxt baş vermişdir ki, Cənubi Amerika Afrika ilə birlikdə Pangeyanın tərkibində olmuşdur. Atlantida digər materiklər Pangeyadan ayrılmamışdan əvvəl ayrılaraq mantiyanın üstü ilə sürüşərək qərbə doğru hərəkət etmişdir. Həmin vaxtlarda mantiyanın üst hissəsi daha çox sürüşkən olmuşdur. Təqribən, indi Cənubi Amerikanın dayandığı yerə çatdıqda Atlantidanın hərəkəti dayanmışdır. Bundan sonra Cənubi Amerika materiki Afrikadan ayrılaraq qərbə tərəf yavaş-yavaş hərəkət etməyə başlamışdır. Bu vaxtlar Yer kürəsinin hər yerində, suda və quruda canlı orqanizmlərin çox güclü inkişaf vaxtları idi. Bu dövrlərdə Atlantida şimal-cənub istiqamətində uzanan ada idi. Təqribən ekvatordan cənuba tərəf, indiki Dreyk boğazına qədər çox da enli olmayan zolaq formasında, meridianal istiqamətdə uzanırdı. Şimali hissələrdə adanın eni 400-500 km, cənub hissələrdə isə 900-1000 km olmuşdur. Uzunluğu isə təqribən Cənubi Amerikanın uzunluğuna bərabər olmuşdur. Həmin vaxtlarda adanın qərbə tərəf hərəkəti yavaşlasa da, tamamilə dayanmamışdır.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Cənubi Amerika materiki də Afrikadan ayrılaraq tədricən qərbə tərəf hərəkətə başlamışdır. Bu vaxtlar Avropa və Afrikada qərb tərəfdə torpaqların olması hələ insanlara məlum deyildir. Atlantidanın təbii şəraiti çox əlverişli idi. Bitki və heyvanlar aləmi çox zəngin idi. Ada hər cür qida ehtiyatı ilə təmin olunmuşdu. İnsanlar mədəni və qüdrətli idi. Insanlıqdan uzaq olan fikirlər onlar üçün tamamilə uzaq idi. Onlarda sinir sistemi, şüur çox yüksək səviyyədə inkişaf etmişdi. Lakin, ada həm qərbdə, həm də şərqdə quru sahələrinə nisbətən uzaqda yerləşirdi. Ona görə də digər materiklərdə yerləşən dövlətlərlə müntəzəm olaraq əlaqə saxlamq mümkün deyildir. Digər tərəfdən Afrika və Avropada baş verən qanlı müharibələrdən Atlantların xəbəri var idi. Buna görə də onlar digər quru sahələrinə gedib-gəlməyə çalışmırdılar. Daha çox Cənubi Amerikada Peru və Boliviyanın ərazisinə gedib-gəlirdilər. Ancaq, başqa yerlərdə Atlantlar daimi və ya uzun müddət qalmamışlar. Onların görünüşü, rəngi, xarakteri və başqa əlamətləri başqa yerlərin insanlarından müəyyən qədər fərqlənirdi. Məlumdur ki, hazırda Yer kürəsində yaşayan insanlar 3 böyük irqə ayırd edilir: avropoid, manqoloid və neqroid. Atlantları bu irqlərin heç birinə aid etmək olmaz. Necə olmuşdur ki, ada heç bir iz qoymadan məhv olmuşdur?

Yazının əvvəlində qeyd etdim ki, Yer kürəsinin hər hansı bir yerində sıxılma gedirsə, başqa bir yerində isə genişlənmə gedir. Bu proses ən qədim vaxtlarda da belə olmuşdur, indi də belədir. Məsələn, Sakit okeanda sıxılma, Atlantik okeanında isə genişlənmə gedir. Özü də genişlənmə tektonik hərəkətlərlə və anomal hadisələrlə nəticələnir. Məsələn, Bermud üçbucağı belə anomal yerlərdəndir. Onu da qeyd edim ki, Bermud üçbucağının Atlantida ilə heç bir əlaqəsi olmamışdır. Orada, suyun dibində nəhəng daşların sıra ilə düzülməsinə gəldikdə bu okean cərəyanlarının gördüyü işdir. Bermud üçbucağı Atlantik okeanında anomal hadisələrin hər an baş verə biləcəyini sübut edən faktdır.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

Atlantida adasının bünövrəsi yumşaq, kristalik, suda həll olan süxurlar üzərində yerləşmişdir. Eyni zamanda Atlantik okeanında genişlənmə daha çox meridianal istiqamətdə baş verir. Ada da bu istiqamətdə yerləşir. Genişlənmə müəyyən həddə çatdıqda ağırlıq qüvvəsinin təsiri altında Atlantida qısa vaxt ərzində suyun dibində yox olmuşdur. Genişlənmə nəticəsində Atlantik okeanının dibində, adanın altında dərin yarıq əmələ gəlmişdir. Məhz həmin yarılmış, çatlamış yer Atlantidanı udmuşdur. Həmin çatlamış yerin dərinliyi mantiyaya qədər gedib çatır. Çatlamış yerin genişlənməsi indi də davam edir. Ancaq, onun üzərini hazırda Cənubi Amerika materiki örtür. Deməli, Cənubi Amerika materiki üçün də həmin faciənin hər an baş verməsi mümkündür.

Yuxrıda qeyd etdim ki, adada yaşayan insanların sinir sistemi müasir insanlara nisbətən 2-3 dəfə çox inkişaf etmişdir. Bunun nəticəsində adada yaşayan çox az nadir insanlar faciənin baş verəcəyini 3-4 gün əvvəlcədən hiss etmişlər. Faciə baş verə biləcəyi haqqında adanın rəhbərlərinə də məlumat vermişlər. Lakin, onların məlumatı inandırıcı görünməmişdir. Ada bir gecə və gündüzün ərzində batmışdır. Sahil zonasında yaşayan insanların bir qrupu qayıqlarla üzərək xilas ola bilmişdilər. Hətta, adanın mərkəzi hissəsində yaşayan, faciənin baş verə biləcəyini hiss edən inanların bir qrupu da sahil zonasına gələrək xilas olmuşdular. Xilas olmuş insanlar qayıqlarla üzərək Cənubi Amerikada yerləşən Ekvador, Peru, Boliviya, Çili və başqa dövlətlərin ərazisinə gəlmişlər və burada yaşamağa başlamışlar. Xilas olmuş insanlar Atlantidanın mövcudluğu, baş vermiş faciə haqqında yerli sakinlərə ətraflı, şifahi məlumatlar vermişlər. Həmin şifahi məlumatlar bütün qitələrə yayılmışdır. Məlumatlar şifahi olduğu üçün müxtəlif, bir-birindən tamamilə fərqli fikir və mülahizələrin yaranmasına səbəb olmuşdur. Bu gün də həmin məlumatlara hər yerdə rast gəlmək mümkündür.

Müasir dövrümüzdə Atlantidaya oxşar faciənin baş verməsi mümkündürmü?

Təəssüflə qeyd etməliyəm ki, mümkündür. Yer kürəsinin bəzi ərazilərində həmin faciənin hər vaxt baş verməsi müəyyən edilə bilər. Bunlar aşağıdakılardır:

1. Yuxarıda qeyd etdiyim kimi Cənubi Amerika materiki tədricən qərbə tərəf hərəkət edərək Atlantidanın batdığı ərazinin üzərində dayanmışdır. Materikin altında çox dərin çuxur vardır. Həmin çuxur və çat getdikcə genişlənir və dərinləşir. Allah göstərməsin, genişlənmənin sürəti artarsa baş verə biləcək faciənin miqyasını təsəvvür etmək çətin deyil.

2. Hazırda Yer kürəsinin bir çox əraziləri müasir elm sahələrinə çox sakit, tərpənməz kimi görünür. Əslində bu sakitlik nisbidir. Belə ərazilərə Afrika, Qərbi, Mərkəzi, Şərqi Avropa, Sibir regionu və başqaları aiddir. Həmin ərazilərdə hər vaxt dəqiq elmi müşahidələr aparılır. Heç bir təhlükəli dəyişiklik müşahidə edilmir. Əslində isə həmin ərazilərdə elm və texnologiyanın öyrənə bilmədiyi çox ciddi dəyişikliklər baş verə bilər. Onların izahı isə ayrı mövzudur.

3. Mərkəzi Amerika ABŞ-ın cənub hissələri, Qərbi Avropanın şimal hissələrində, Aralıq dənizi ətrafında, Asiya qitəsinin şərqində yaxın vaxtlarda ciddi dəyişikliklər baş verəcəkdir.

Yer kürəsi bir planet kimi formalaşmağa başladıqda əvvəlcə onun quruluşu çox sadə olmuşdur. Sonra tədricən mürəkkəbləşmə baş vermişdir. Sadədən mürəkkəbə doğru inkişafa diqqət verdikdə görürük bütün proseslər çox ciddi qanunların təsiri altında baş verir. Bütün hadisə və proseslərin istiqaməti insanın və şüurun əmələ gəlməsinə doğru yönəlmişdir. Allah insanı və şüuru yaratmışdır ki, elm öyrənsinlər. Elm Kainatı öyrənmək üçün, onun sirlərinə bələd olmaq üçün yeganə yoldur.

Hazırda Yer kürəsi özünün mürəkkəb inkişaf dövrünü başa vurmuşdur. İstəsək də, istəməsək də planetimiz öz quruluşunun sadələşməsinə doğru gedir. Sadələşmə isə ciddi dəyişikliklər deməkdir. Bu dəyişikliklər isə Yerin bütün təbəqələrini, litosferi, atmosferi, hidrosferi, bir sözlə nə varsa hamısını əhatə

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 61-76**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 61-76**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

edir. Allah həmişə baş verən hadisə və proseslərdə insanları qorumuş və bundan sonra da qoruyacaqdır. Ancaq bu insanların şüurlu və ağıllı fəaliyyəti nəticəsində mümkündür.

Mən bu yazıda Atlantida ilə əlaqədar olan, heç bir vaxt heç bir yerdə yazılmamış məlumatları öz düşüncələrimə əsasən qeyd etdim. Bundan sonra da planetimizdə baş verə biləcək bütün dəyişikliklər mənə tamamilə aydındır. Onların hamısını qeyd etmək fikrindən uzağam. Bilirəm ki, bütün bunlar ciddi müzakirələrə səbəb olacaqdır. Ona görə də mənimlə fikir mübadiləsi aparanların hamısına əvvəlcədən öz minnətdarlığımı bildirirəm.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 77-80
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 77-80
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
orxanrzazade@mail.ru

# RESEPTORLAR HAQQINDA QEYDLƏR

***Açar sözlər:*** *canlı orqanizmlər, qıcıqlanma, reseptorlar*
***Keywords:*** *living organisms, irritation, receptors*

Əvvəlcədən qeyd etmək istəyirəm ki, mən bu yazıda reseptorlar haqqında öz müşahidələrimi qeyd edəcəyəm. Dərsliklərdə və elmi ədəbiyyatlarda reseptorlar haqqında kifayət qədər məlumatlar vardır. Mən həmin məlumatları təkrar etmək fikrindən uzağam. Uzun illər ərzində reseptorların ətraf aləmi necə hiss etməsi məni düşündürmüşdür. Ona görə də reseptorlar haqqında olan elmi məlumatları öyrənməyə çalışmışam. Eyni zamanda, müxtəlif canlı orqanizmlər haqqında, onların ətraf aləmi necə hiss etməsi üzərində ciddi müşahidələrimdə dəqiq müəyyən etmişəm ki, elə heyvanlar vardır ki, onların ətraf aləmin hiss etməsi ilə əlaqədar elm aləminə məlum olmayan xeyli hadisələr vardır. Bütün hadisələr isə reseptorlarla əlaqədardır. Ona görə də reseptorlarla əlaqədar olan müşahidələrimi və topladığım elmi məlumatları qeyd etmək fikrindəyəm.

Məlumdur ki, 2012-ci il oktyabrın 10-da Nobel Mükafatları Komitəsi kimya üzrə ali elmi mükafatına amerikalı tibb professorları Robert Lefkoviç və Brayan Kobilkanı layiq gördü. Mükafatın təqdim olunması zamanı Nobel Komitəsinin açıqlamasında qeyd olunurdu: "İnsan bədəni dəqiq köklənmiş mexanizmdir. Onun fəaliyyəti orqanizmi təşkil edən milyardlarla hüceyrələrin qarşılıqlı təsiri ilə müəyyən olunur. Hər bir hüceyrə kiçik reseptorlarla təchiz olunub, onun köməyi ilə o, ətraf mühiti hiss edir".

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 77-80**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 77-80**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

Robert Lefkoviç və Brayan Kobilka ilk dəfə olaraq canlı orqanizmlərin ətraf aləmi hiss etməsi mexanizmini açmışdır. Onlar C zülallı reseptorların necə işlədiyini izah etmişdir. Burada mən aydın olması üçün reseptorlar haqqında qısa məlumat vermək istərdim. Məlumdur ki, orqanizm həmişə daxili və xarici mühit amillərinin təsiri altndadır. Müxtəlif qıcıqlandırıcılara həssas olan sinir ucları, reseptorlar orqanizmin hər yerində yerləşir. Reseptorlar çox həssas hüceyrələrdən təşkil olunmuşdur. Həmin hüceyrələrin köməyi ilə insan orqanizmi işığı, istini, soyuğu və başqa təsirləri hiss edir. Həssas hüceyrələrdən təşkil olunmuş reseptorlar orqanizmin səthində, duyğu orqanlarında və daxili orqanlarda yerləşir. Görmə, eşitmə, iybilmə reseptorları qıcıqları uzaq məsafədən qəbul edir. Orqanizmin səthində yerləşən reseptorlar isə qıcıqları yalnız toxunulduqda hiss edir. Həmçinin orqanizmin hər hansı bir nahiyəsində bir neçə növ reseptor ola bilər. Buna görə də orqanizmdə bir neçə hiss eyni zamanda yarana bilir.

Müxtəlif elmi kitablarda izah olunur ki, reseptorlar yalnız ona toxunulduqda oyanır. Bu zaman oyanma sinir lifləri ilə beyin qabığının müəyyən nahiyəsinə ötürülür. Bunun nəticəsində beyin qabığının müəyyən nahiyəsində obrazlar yaranır, hisslər formalaşır. Beləliklə, biz bütün dünya haqqında məlumat toplayıb təhlil edirik. Yuxarıda qeyd etdim ki, reseptorlarda oyanma ona toxunmaqla mümkün olur. Uzun illər ərzində bir sual məni həmişə düşündürmüşdür. Reseptorlarda oyanma ona toxunmadan mümkün ola bilərmi? Müşahidələr və təcrübələrlə müəyyən etmişəm ki, reseptorlarda oyanma onlara toxunmadan da baş verir. Bunu mən müxtəlif canlı orqanizmlər üzərində apardığım müşahidələr nəticəsində müyyən etmişəm. Bunun nə qədər doğru olub olmadığını isə gələcəkdə elmi tədqiqatlar sübut edəcəkdir. Uzun illər ərzində reseptorların necə işləməsini aydınlaşdırmaq üçün tədqiqat işləri aparmışlar. Dünyada ilk dəfə, 1968-ci ilə Robert Lefkoviç hüceyrə reseptorlarını öyrənmək üçün tədqiqat

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 77-80**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 77-80**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

işlərinə başlayıb. O, hüceyrələrin səthində bir neçə reseptor tapıb. Onun rəhbərliyi altında bir qrup tədqiqatçı alim hüceyrə divarından reseptor əldə etmişlər. 1980-ci ildə Robert Lefkoviçin laboratoriyasında işləyən Brayan Kobilka beta-adrenoreseptoru kodlaşdıran geni müəyyən edə bilib. Bundan sonra alimlərə məlum olmuşdur ki, reseptorların iş mexanizmi oxşardır. Həmçinin onların bütöv bir ailəsi mövcuddur. Müyyən olunmuşdur ki, C zülalları reseptorlara bağlanmışdır. Bu reseptorlar isə minə yaxın geni kodlaşdırır. Hər bir gen isə müxtəlif təsirlərə çox həssasdır. Genlər ayrı-ayrılıqda və birlikdə fəaliyyət göstərə bilirlər. Deməli, insanın ətraf aləmi dərk etməsi reseptorların işləmə mexanizmi nəticəsində mümkün olur. Göründüyü kimi reseptorların imkanları çox böyükdür. Ona görə də reseptorların quruluşunun və işləmə mexanizminin çox böyük əhəmiyyəti vardır.

Bir daha qeyd etmək istəyirəm ki, yuxarıda qeyd etdiklərim müşahidələrimə əsaslanaraq, fikirlərimi aydınlaşdırmaqdır. Bəzi heyvanların davranışlarında müşahidə etdiyim hadisələr qeyd etməyə əsas verir ki, elə reseptorlar vardır ki, heç bir təsir olmadan oyanır və oyanma beyin qabığına ötürülür. Bu zaman heyvan beyinin göndərdiyi siqnallara uyğun olaraq hərəkət etməyə başlayır. Misalların sayı çoxdur. Mənim üçün dəqiq aydındır ki, elə reseptorlar vardır ki, hansısa qüvvənin təsiri altında oyanır. Bu zaman oyanma digər reseptorların və bütün mərkəzi sinir sisteminin oyanmasına səbəb olur. Nəticədə, heyvan da qida əldə edir, ya da təhlükədən uzaqlaşır. Müəyyən etmişəm ki, çox vaxt qıcıqlanma olmadan reseptorların oyanması heyvanların bir yerdən başqa yerə köçüb getməsi ilə nəticələnir. Ola bilsin ki, qeyd etdiklərim müzakirə mövzusu olsun. Məlumdur ki, havada hər hansı maddənin bir molekulu olduqda belə, heyvanın hiss üzvləri həmin molekulu tuta bilir. Bu da reseptorların oyanmasına səbəb olur. Mənim qeyd etdiklərim isə tamamilə heç bir təsir olmayan oyanmaya aiddir. Eyni zamanda,

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 77-80**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 77-80**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

hər hansı bir reseptorda baş verən oyanma digər reseptorların da oyanmasına səbəb olur. Bu zaman baş verən oyanmaların təsiri ilə mərkəzi sinir sistemi çox gərgin işləməyə başlayır. Nəticədə, hər hansı bir heyvanın orqanizmində yaranan enerji başqa canlılara da təsir göstərir. Bəzi heyvanlarda baş verən oyanmalar güclü, bəzilərində zəif olur. Oyanmaların baş vermədiyi canlılar da vardır. Bəzi heyvanların mərkəzi sinir sistemində yaranan güclü enerji insan orqanizminə də təsir göstərir. Belə təsir birbaşa və dolayı yolla ola bilir. Əgər belə təsir hər hansı bir insana təsir göstərərsə, onda həmin insanın həyatı təhlükə altına alınmış olur. Sual oluna bilər ki, bütün bunları necə müəyyən etmək olar? Yalnız uzunmüddətli dəqiq müşahidələr və təcrübələrlə bunların həqiqətə nə qədər uyğun olduğunu aydınlaşdırmaq mümkündür.

Heç bir qıcıqlanma olmadan baş verən oyanmalar insan orqanizmində başqa canlılara nisbətən çox güclü olur. Belə oyanmalar həm xarici, həm də daxili reseptorların hamısında və ya bir hissəsində baş verir. Əvvəlcə daxili üzvlərin kiçik bir hissəsində oyanma əmələ gəlir. Sonra digər reseptorlar da oyanır. Nəticədə, mərkəzi sinir sisteminin bütün bölgələri gərgin işləməyə başlayır. Bu zaman elm aləminin hələlik öyrənə bilmədiyi enerji yaranır. Belə enerji çox nadir insanlarda yaranır. Həmçinin yaranan enerjinin gücü ayrı-ayrı insanlarda müxtəlif olur. Bu enerjinin başqa insanlara təsiri müsbət və mənfi ola bilir. Nə vaxt xeyirli, nə vaxt zərərli olmasının aydınlaşdırılması ayrı mövzudur.

Ümumiyyətlə, insan orqanizmində reseptorlarda baş verən oyanmalar haqqında müasir elmə məlum olmayan məsələlər çoxdur. Onların öyrənilməsi elmin bundan sonrakı inkişaf nəticəsində mümkün olacaqdır. Qeyd etmək istəyirəm ki, insan orqanizmi müasir elmə məlum olduğundan da dəfələrlə mürəkkəb bir sistemdir. Mən özümün müşahidə və təcrübələrimin dəqiq nəticələrinin çox kiçik bir hissəsini qeyd etdim.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 81-84
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 81-84
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

**Sevinc Həbibli**
Bakı Dövlət Universiteti
magistrant
sevinchabibli@gmail.com

# METANIN BİOMİMETİK OKSİDLƏŞMƏSİ

***Açar sözlər:*** *propan, hidroksidləşmə, hem əsaslı biomimetik katalizator, karbohidrogen, aktivlik, davamlı enerji*
***Keywords:*** *propane, hydroxylation, heme-based biomimetic catalyst, hydrocarbon, activity, sustainable energy*

$PPFe^{3+}OH/\ Al_2O_3$ biomimetik katalizatorun monooksigenaz aktivliyinin eksperimental tədqiqi metanın hidrogen peroksidlə oksidləşməsi reaksiyasında qaz fazada axınlı reaktorda atmosfer təzyiqində 120-240$^0$C temperaturda aparılmışdır (Abbasova, Nagiyev, 1997). Yaşıl oksidləşdirici sayılan $H_2O_2$-in müxtəlif qatılıqlarından istifadə olunaraq proses metan ilə $H_2O_2$-in $CH_4$:$H_2O_2$ müxtəlif mol nisbətlərində aparılmışdır. Göstərilən şəraitdə aparılan metanın hidrogen peroksidlə biomimetik oksidləşməsi prosesində alınan reaksiya məhsullarının tərkibini əsas metanol almaqla az miqdarda formaldehid və qarışqa turşusu təşkil edir (Karasevich, Kulikova, Shilov, Shteynman, 1998).

Təcrübələrin nəticələrinin təsvir olunduğu şəkildən görünür ki, biomimetik katalizatorun monooksigenaz aktivliyi təcrübə müddətindən asılı olaraq azalır. Belə ki, ilk bir saat ərzində aktivlik kəskin azalır, bir saatdan sonra isə katalizator tamamilə dezaktivləşir (Nagiyev, 2001) (şəkil 1).

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 81-84
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 81-84
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII




**Şəkil 1. Bioimitatorun katalitik aktivliyinin metanın konversiyasının onun işləmə müddətindən asılılığı: t=180$^0$C, T=13 sek, $V_{CH4}$=0,086 l/saat, $V_{H2O2}$=0,8 ml/saat, $CH_4$:$H_2O_2$=1:1,4 (mol), $C_{H2O2}$ =20%**

Bu biomimetik katalizator iştirakında metanın $H_2O_2$ ilə oksidləşməsi reaksiyasının kinetik qanunauyğunluqlarının tədqiqi prosesi parametrlərinin: temperaturun 120÷240$^0$C, $CH_4$:$H_2O_2$ mol nisbətinin 1÷0,5÷1÷2,8, $H_2O_2$-in qatılığının 10÷30 % intervallarında aparılmışdır (Poltorak, Chukhray, 1971).

Temperaturun reaksiyanın gedişinə təsirini əks etdirən əyrilərdən (şəkil 2) görünür ki, reaksiya məhsulunun əsasını təşkil edən metanolun çıxımı temperaturdan asılı olaraq maksimumdan keçir və maksimal qiymət (22,5 %) 180$^0$C-də alınır. Digər məhsullar olan formaldehid və qarışqa turşusu az miqadar təşkil etdiyindən, metanolun alınması yüksək selektivliklə əmələ gəlir.




**Şəkil 2. Reaksiya məhsullarının çıxımının temperaturdan asılılığı: $V_{CH4}$=0,086 l/saat, $V_{H2O2}$=0,8 ml/saat, $C_{H2O2}$ =20%, $CH_4$:$H_2O_2$=1:1,4( mol) 1-$CH_4$ konversiyası, 2-metanol, 3 və 4 -$CH_2O$ və HCOOH, 4-selektivlik.**

Metanın konversiyasının və metanolun çıxımının temperaturdan asılı olaraq maksimumdan (180$^0$C) keçib azalması yuxarı temperaturda hematinin parçalanması ilə əlaqədar katalizatorun dezaktivləşməsi ilə izah olunur (Harun, Woo, 2008).

## Ədəbiyyat

1. Abbasova, M.T., Nagiyev, T.M. (1997). Okisleniye metana peroksidom vodoroda v metanol na nanesonnom gematinovom katalizatore. Zhurnal fizicheskoy khimii, t. 71, № 7, s.1220-1224.
2. Karasevich, Ye.I., Kulikova, V.S., Shilov, A.Ye., Shteynman, A.A. (1998). Biomimeticheskoye okisleniye alkanov s uchastiyem kompleksov metallov. Uspekhi khimii, t. 67, № 4, s.376-398.

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 81-84**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 81-84**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

3. Nagiyev, T.M. (2001). Vzaimodeystviye sinkhronnykh reaktsiy v khimii i biologii. Baku: Elm, 404 s.
4. Poltorak, O.M., Chukhray, E.C. (1971). Fiziko-khimicheskiye osnovy fermentativnogo kataliza. Uchebnoye posobiye dlya vuzov M.: "Vysshaya shkola", 360 s.
5. Harun, M.M., Woo, L.K. (2008). New catalytic reactions of iron (III) porphyrins. International Conference on Porphyrins and Phtalocyanines. Moscow, Russia, 6-11 July, pp.210-212.

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 85-87
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 85-87
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

## RİYAZİYYAT VƏ MEXANİKA

## MATHEMATICS AND MECHANICS

**Natəvan Bayramova**
Gəncə Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
natavanbayramova2@gmail.com
**Aysel Abdulqədirova**
Gəncə Dövlət Universiteti
magistrant
qafqaz899@gmail.com

# İNTEQRALLAŞMIŞ PROQRAMLAŞDIRMA PLATFORMASINA MALİK OLAN ÇOXFUNKSİYALI VİSUAL STUDİO İDE PROQRAMLAŞDIRMA MÜHİTİNİN MAHİYYƏTİ

***Açar sözlər:*** *Visual Studio, Visual Basic.Net, konsol proqramları, qrafik interfeysli tətbiqlər, çarpaz platformalar, yerli tətbiqlər*
***Keywords:*** *Visual Studio, Visual Basic.Net console applications, GUI applications, cross-platform, native applications*

Müasir dövrdə bir çox inteqrasiya edilmiş proqramlaşdırma mühitləri (IDE) var ki, onlar proqram təminatın tərtibatının bir çox aspektlərini dəstəkləyir, çoxfunksiyalı proqram hesab olunur. İnteqrallaşmış proqramlaşdırma platformasına malik olan, bir çox komponentləri özündə birləşdirən Visual Studio İDE çoxfunksiyalı bir proqramlaşdırma mühitidir və imkanları olduqca genişdir. Burada Windows Forms, UWP texnologiyasının dəstəyi ilə, həm konsol proqramları, həm də qrafik

Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 85-87
Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 85-87
DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII

interfeysli oyunlar və tətbiqlər, o cümlədən vebsaytlar, veb-proqramlar, veb-xidmətlər və s. hazırlamaq mümkündür. Visual Studio IDE proqramların yazılması, sazlanması, kodun yaradılması və sonra proqramların nəşri üçün işə salma platformasıdır. Əksər IDE-lərdə olan standart redaktor və sazlayıcıya əlavə olaraq, Visual Studio proqramlaşdırma təcrübənizi təkmilləşdirmək üçün tərtibçilər, kod tamamlama, qrafik dizayn və bir çox başqa funksiyaları özündə ehtiva edir.

Visual Studio Windows və Mac(qismən) əməliyyat sistemləri üçün uyğunlaşdırılıb. Visual Studio-nun 3 buraxılışı var: Community, Professional и Enterprise. Mac üçün Visual Studio, Windows üçün Visual Studio-ya çox bənzəyir və çarpaz platformalar və mobil tətbiqlər üçün optimallaşdırılıb. Cross (Çarpaz) – platformalarda işləyən tətbiqlər həm Android, həm də iOS-da işləyən mobil proqramlar vasitəsi ilə hazırlanmışdır. Bunun əksinə olaraq, native proqramlaşdırma müəyyən yalnız bir platformada işləyən  proqram qurulmasına deyilir. Həmçinin Hibrid (hybrid) platformalar varki, Microsoft məhsul xətti inteqrasiya olunmuş proqram təminatını proqramlaşdırma mühitini və bir sıra digər alətləri özündə birləşdirir.

Bu məhsullar Windows Forms, UWP texnologiyasının dəstəyi ilə, həm konsol proqramları, həm də qrafik interfeysli oyunlar və tətbiqlər, o cümlədən vebsaytlar, veb-proqramlar, veb-xidmətlər, həm yerli, həm də idarə olunan kodu dəstəkləyən bütün platformalar üçün (Windows, Windows Mobile, Windows CE, .NET Framework, .NET Core, .NET, MAUI, Xbox, Windows Phone .NET Compact Framework və Silverlight) hazırlamağa imkan verir. Microsoft tərəfindən Xamarin satın alındıqdan sonra İOS və Android proqramlarını proqramlaşdırmaq imkanı yarandı.

Visual Studio aşağıdakı komponentlərdən birini və ya bir neçəsini özündə ehtiva edir:

**Elmi Qaynaqlar XVII Respublika Elmi Konfransı / 12 iyun 2024 / 85-87**
**Scientific Resources XVII Republican Scientific Conference / 12 june 2024 / 85-87**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/XVII**

- Visual Basic .NET və ondan əvvəl Visual Basic
- Visual C# (Visual Studio .NET-dən sonra)
- JavaScript
- XAML
- Visual C++
- Visual F# (Visual Studio 2010-dan bəri)
- Python (Visual Studio 2019-dan bəri)
- TypeScript

Visual Studio-nun ilkin versiyası Visual Studio 97, 1997-ci ildə, sonuncu versiyası Visual Studio 2022 isə 31 may 2022-ci ildə işıq üzü görüb.

Ümumiləşdirərək qeyd edə bilərik ki, Visual Studio aşağıdaki imkanları özündə birləşdirir:

- Windows. (Windows ilə işləyən bütün cihazlar üçün proqramların və oyunların hazırlanması).
- Mobil Tətbiqlər. (Android, iOS və Windows üçün yerli və ya hibrid proqramlar).
- Azure Proqramları. (Sadə quraşdırılma, miqyaslanan, buludlu tətbiqlərin genişlənilməsi və onların Azure - tərəfindən idarə olunması).
- Veb - tətbiqlər. (Açıq mənbə koduyla, elastik və çoxfunksiyalı vasitələr ilə müasir veb-əlavələrin hazırlaması)
- Office. (Office - üçün hazırlanan bütün tip çoxfunksiyalı vasitələr)
- Oyunlar. (Müasir qrafika və skript alətlərindən istifadə edərək oyunların hazırlanması, kodlaşdırılması və sazlanması).
- Genişlənmələr. (Visual Studio üçün şəxsi genişlənmələrin yazılışı)
- Verilənlər bazası. Sadə tərtibat və SQL Server və SQL Azure verilənlər bazalarının genişlənilməsi.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Eldar Cəfərov, Fidan Əlili**
Üçüncü Dünya və Postkolonial təhlükəsizlik yanaşması . . . 6
**Kəmalə Həsənova**
Rusiya Federasiyasının enerji siyasəti . . . . . . . . . . . . . . . . . 12
**Püstəxanım Qəniyeva**
Təhsildə psixoloji dəstək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
**Gozel Aliyeva**
The influence of assessment in pupils' motivation . . . . . . . . 22
**Ümid Həsənov**
Kiçik və orta sahibkarlıq və onların əsas səciyyəsi . . . . . . . 26
**Günel Nəzərova**
Yuxarı sinif şagirdlərində siyasi mədəniyyətin formalaşmasında özünütərbiyənin əhəmiyyəti və təşkili yolları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
**Gülarə Quliyeva**
Metaforalaşma və metaforik nəzəriyyələr . . . . . . . . . . . . . . 33
**Günel Əliyeva**
Tətbiqi dilçilikdə presedentlik anlayışı . . . . . . . . . . . . . . . . 38
**Şəlalə Nəbiyeva**
Büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
**Samiq Abbaslı**
Mərziyə Davudova sosializm realizminin romantik aktrisası kimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45

**Elvin Nəcəfquluzadə**
Turizm sənayesi üçün françayzinqin əsasları və üstünlükləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
**Aidə Abdullayeva**
Azərbaycan Respublikasında audit fəaliyyətinin istiqamətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 51
**Aynura Aliyeva**
Methods of development of English speech at universities . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
**Qönçə Firudinli**
Tayu və Şamisen Bunraku Kukla Teatrının ayrılmaz hissəsi kimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .57

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Tahə İbrahimov**
Atlantidanın məhvinə səbəb nə olmuşdur? . . . . . . . . . . . . . 61
**Tahə İbrahimov**
Reseptorlar haqqında qeydlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77
**Sevinc Həbibli**
Metanın biomimetik oksidləşməsi . . . . . . . . . . . . . . . . . . . . . 81

## RİYAZİYYAT VƏ MEXANİKA
## MATHEMATICS AND MECHANICS

**Natəvan Bayramova, Aysel Abdulqədirova**
İnteqrallaşmış proqramlaşdırma platformasına malik olan çoxfunksiyalı Visual Studio IDE proqramlaşdırma mühitinin mahiyyəti . . . . . . . . . . . . . . . . . . 85

İmzalandı: 09.06.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 5,75 ç.v.
Sifariş: 767

"ZƏNGƏZURDA" Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru